

Milli azadlıqdan
şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

10 iyul
2026-cı il,
cümə
№ 119 (7186)
Qiymәti
60 qəpik


# Azərbaycanın ardıcıl və prinsipial mövqeyi



Bax səh. 2

## Regionun nəqliyyat xəritəsini Azərbaycan müəyyənləşdirir

Bax səh. 2

## Azərbaycan diplomatiyası böyük uğurlar qazanır

Bax səh. 4

## Qlobal enerji bazarı: Risklər və gözləntilər

Bax səh. 4

## NATO-nun Kosmosda “yeni gözü”- Türkiyənin İMECE Komandası...

Bax səh. 6

## Yeni qaydalar lazımdırmı?

REAL Partiyasının sədri, iqtisadçı Natiq Cəfərli sosial media hesabında (Fb) Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) ölkəmizə idxal olunan heyvanların daşınması ilə bağlı tətbiq etməyə hazırlaşdığı yeni qaydaları tənqid edib. Sitat: “AQTA-nın rəsmi məlumatına görə, bundan sonra ölkəyə idxal olunan heyvanlar yalnız ixtisaslaşdırılmış nəqliyyat vasitələri ilə daşınmalıdır. İstifadə olunan avtomobillər mütləq şəkildə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının “Quruda yaşayan heyvanların sağlamlıq məcəlləsi”nin sərt tələblərinə cavab verməlidir. Yenə aşırı tənzimləmə, yenə müdaxilə, yenə Avropa Birliyini iqtisadi “loser”ə çevirən səhvlərin təkraralanması. Əl şəkin insanlardan, imkan verin biznes qura, inkişaf etdirə bilsinlər, bu qədər mənasız tənzimləmə, qadağa, cərimə nəyə lazımdır axı?! Qoyun-quzunu limuzində daşımalıdırlar?! Dədə-babalarımız arabalarda daşıyıblar, nəsə olub o heyvanlara?!. Ölkədə onlarla məzmunsuz qurum var, əksəriyyəti ləğv edilməlidir, “kiçik və effektiv” hökumət...

Bax səh. 5

## Rəqəmsal idarəetmə dövrü başlayır

Bax səh. 3

## Qeyri-neft ixracının həcmi və coğrafiyası böyüyür

Bax səh. 5

## Almaniya ABŞ-dan “Tomahawk” raketləri alır

Bax səh. 7

## Müharibə yenidən başlayır?

Bax səh. 7



# Ankaradan BƏYANAT!!!

Bax səh. 6

# Azərbaycanın ardıcıl və prinsipial mövqeyi

## Sülh prosesində əsas gözlənti Ermənistan Konstitusiyasından ölkəmizə qarşı ərazi iddialarının çıxarılmasıdır



Azərbaycanın 44 günlük Vətən müharibəsində və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında qazandığı qələbələr sayəsində Cənubi Qafqaz coğrafiyasında yeni reallıqlar yaranıb. Bu reallıqlar Ermənistanın işğalçılıq siyasəti aparması səbəbindən onilliklər boyunca davam edən münaqişədən sonra regionda davamlı sülhün, əməkdaşlığın və təhlükəsizliyin təmin olunması üçün münbit zəmin formalaşdırıb.

Hazırda Cənubi Qafqaz heç vaxt olmadığı qədər sülhə yaxındır. Belə ki, Azərbaycanla Ermənistan arasında tənzimləmə prosesi artıq yekun mərhələyə daxil olub və tərəflər bu mərhələnin də keçilməsi, etimad quruculuğunun möhkəmlənməsi üçün addımlar atırlar. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında sülh prosesinin hazırkı vəziyyəti ilə bağlı mühüm məqamlara diqqət çəkib.

**Zəngəzur (TRİPP) dəhlizinin yaradacağı imkanlar...**

C.Bayramovun verdiyi mühüm açıqlamalardan biri Zəngəzur dəhlizi (TRIPP) ilə bağlıdır. Nazir bu mövzuda da optimist danışıb. Bildirib ki, Zəngəzur dəhlizinin Ermənistan ərazisindən keçən hissəsi ilə bağlı əldə olunmuş razılaşmaya əsasən, bu prosesdə Amerika Birləşmiş Ştatları (ABŞ) da iştirak edir. Bu istiqamətdə, ilk növbədə, danışıqlar ABŞ ilə Ermənistan arasında aparılır. Çünki söhbət Ermənistan ərazisindən gedir. Eyni zamanda, reallıq ondan ibarətdir ki, həmin dəhlizin həm giriş, həm də çıxış nöqtələri Azərbaycan Respublikasının ərazisidir. "Danışıqların gedişi və ümumilikdə proses barədə amerikalı tərəfdaşlarımız tərəfindən mütəmadi şəkildə məlumatlandırılırıq. Bir neçə ay əvvəl Ermənistan tərəfi ilə ABŞ arasında ilkin sənəd də imzalanmışdı. Bizə verilən məlumata görə, proses davam edir və hazırda sənədlərin hazırlanması mərhələsi gedir. Bu dəhlizlə bağlı söhbət dəmir yolundan, avtomobil yolundan, elektrik kabellərindən, o cümlədən boru kəmərlərindən də gedə bilər",- deyə nazir əlavə edib.

Zəngəzur dəhlizi (TRIPP marşrutu) ilə bağlı ən mühüm razılaşma ötən il avqustun 8-də Vaşinqtonda, Ağ Evin oval kabinetində - dünyanın bir nömrəli ofisində Azərbaycan, Ermənistan və ABŞ liderlərinin birgə iştirakı ilə baş tutan görüşdə əldə olunub. Belə ki, həmin görüşdə aparılan müzakirələrin nəticəsi olaraq regionda kommunikasiyaların blokdan çıxarılması razılaşdırılıb. Bununla bağlı liderlərin imzaladığı Birgə Bəyanatda konkret müddəalar yer alıb. Dünyanın siyasi, iqtisadi və hərbi güc mərkəzi sayılan ABŞ-ın Prezidenti D.Trampın şahidliyi ilə imzalanan sənəddə oxuyuruq: "Biz regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi üçün iki ölkə arasında ölkədaxili, ikitərəfli və beynəlxalq nəqliyyatın təmini məqsədilə kommunikasiyaların açılmasının əhəmiyyətini bir daha təsdiq etdik. Bu səylər Azərbaycan Respublikasının əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını və Ermənistan Respublikası üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva edir".

Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın şahidliyi ilə Azərbaycan və Ermənistan liderlərinin imzaladıqları birgə Bəyanatdan da göründüyü kimi, regionda kommunikasiyaların blokdan çıxarılması ilə bağlı Azərbaycanın lap əvvəldən ortaya qoyduğu və əsaslandırdığı mövqe birmənalı çəkildə nəzərə alınıb. Respublikamız bu məsələdə təkid etməkdə tam haqlıdır. Naxçıvan Muxtar Respublikiası Azərbaycanın ayrılmaz hissəsidir. Bu bölgə Ermənistanın ötən əsrin doxsanıncı illərinin əvvəllərində respublikamıza qarşı başladığı işğalçılıq siyasətinə görə blokada şəraitinə düşdü. Artıq 30 ildən çoxdur ki, Naxşıvan əhalisi çətin vəziyyətdə qalıb. Bu regionun vətəndaşları respublikamızın paytaxtına və digər bölgələrinə gedib-gəlmək üçün hava nəqliyyatından və İran ərazisindən keçən marşrutdan istifadə etmək məcburiyyətindədirlər. Zəngəzur dəhlizinin yaradılması ilə Naxçıvan əhalisinin onilliklər boyunca çəkdikləri əzab-əziyyətə nəhayət son qoyulacaq. Eyni zamanda, Zəngəzur dəhlizi (TRIPP marşrutu ) fəaliyyətə başladıqdan sonra Azərbaycanın tranzit imkanları daha da genişlənəcək.



Həmçinin Zəngəzur dəhlizinin (TRIPP marşrutunun) yadaılması bütün region dövlətlərinin, o cümlədən də Ermənistanın da mənafeyinə uyğundur.

**Azərbaycan sülh sazişinin yekunlaşması üçün üzərinə düşən bütün işləri tamamlayıb**

XİN rəhbərinin verdiyi mühüm açıqlamalardan biri də sülh prosesinin gedişi ilə bağlıdır. C.Bayramov bildirib ki, sülh sazişinin yekunlaşdırılması ilə bağlı Azərbaycan tərəfinin üzərinə düşən bütün işlər artıq həyata keçirilib və tamamlanıb. O bildirib ki, artıq sülh sazişinin mətni paraflanıb və ictimaiyyət üçün açıqlanıb. Bu gün həmin mətnin həm preambulası, həm də 17 maddəsi hər kəs üçün açıqdır. "Azərbaycanın mövqeyi bu məsələdə hər zaman ardıcıl və prinsipial olub. Prezident İlham Əliyev dəfələrlə bildirib ki, Azərbaycanın əsas gözləntisi Ermənistan Konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarının çıxarılmasıdır. Bundan sonra sülh sazişinin imzalanması üçün heç bir əlavə maneə qalmayacaq və sənəd növbəti gün imzalana bilər", - deyə nazir vurğulayıb.

İkinci Qarabağ müharibəsinin başa çatmasından sonra regionda tənzimləmə prosesinə məhz Azərbaycanın təşəbbüsü ilə başlanıb. Azərbaycan həm müharibənin qalib tərəfidir, həm də sülh quruculuğuna təkan verən dövlətdir. Dünya tarixindən bəllidir ki, müharibələrin qalib tərəfi olan dövlətlər bir qayda olaraq məğlub tərəfə öz şərtlərini diktə edirlər. Qalib Azərbaycan belə davranmadı, 10 noyabr 2020-ci il tarixində Ermənistan üçün kapitulyasiya sənədi hesab edilən üçtərəfli bəyanat imzalandıqdan sonra müharibə səhifəsini bağlamaq və gələcəyə baxmaq əzmini ortaya qoydu. Azərbaycanın müharibə başa çatandan sonra Ermənistana ünvanladığı 5 bənddən ibarət sülh paketində qalib dövlətin hansısa ambisiyları yer almırdı, əksinə bu sənəd sırf beynəlxalq hüquq və dünyada qəbul olunmuş norma və prinsiplər nəzərə alınmaqla hazırlanmışdı. Sonrakı mərhələdə Ermənistandakı revanşist qüvvələrin və onların xaricdəki havadarlarının manipulyativ davranışlar sərgiləmələrinə rəğmən, Azərbaycan bütün belə əsassız müqavimət cəhdlərinin qarşısını aldı və beləliklə də sülhə doğru böyük yol keçmək, nəzərdə tutulan bütün müddəaların razılaşdırılması mümkün oldu.

Ötən ilin avqustunda Vaşinqtonda Azərbaycan və Ermənistan liderlərinin, eləcə də ABŞ Prezidentinin iştirakı ilə "Azərbaycan Respublikası ilə Emənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in hər iki ölkənin xarici işlər nazirləri tərəfindən paraflanması əslində Azərbaycanın sülh gündəliyinin beynəlxalq səviyyədə təsdiqi idi. Sənədin mətnində əsas müddəalardan biri ərazi bütövlüyü ilə bağlıdır. Burada vurğulanır ki, Azərbaycan və Ermənistan bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər.

Vaşinqton görüşü sülh prosesində keyfiyyətcə yeni bir mərhələ açıb və Prezident İlham Əliyevin bildirdiyi kimi, hazırda regionda sülh reallıqdır. Tərəflər bunun nəticələrini hiss edirlər. O cümlədən Azərbaycan sülh prosesinə sadiqliyini nümayiş etdirərək öz ərazisindən Ermənistana tranzit yüklərin daşınmasına razılıq verib. Eyni zamanda, Azərbaycandan Ermənistana starteji enerji məhsulları göndərilir. Həmçinin iki ölkənin vətəndaş cəmiyyəti nümayəndələrinin mütəmadi görüşləri ilə etimad quruculuğu istiqamətində zəruri addımlar atılır.

Hazırda yekun sülh sazişinin imzalanmasına yeganə maneə Ermənistan konstitusiyasıdır. Azərbaycan qalıcı sülh mövqeyindən çıxış edir. Bunun üçün isə yalnız sülh sazişini imzalamaq yetərli deyil. Qalıcı sülh üçün fundamental hüquqi baza olmalıdır. Ancaq Ermənistanın hazırkı konstitusiyası bu bazanı təmin etmir. Bu da onunla bağlıdır ki, Ermənistanın əsas qanununun preampula hissəsində açıq-aşkar respublikamıza qarşı ərazi iddialarının yer aldığı müddəalar var. Belə bir vəziyyətdə hansı məntiqlə qalıcı sülhdən danışmaq mümkündür? Buna görə də sülh təşəbbüsünün müəllifi olan Azərbaycan Ermənistan konstitusiyasının dəyişdirilməsini yekun sənədin imzalanması üçün əsas şərtlərdən biri kimi irəli sürüb. Ermənistan konstitusiya dəyişikliyinə getməklə sülh prosesinə nə qədər sadiq olduğunu ortaya qoyacaq. Bu dəyişikliklər ediləndən sonra artıq sülh sazişi istənilən vaxtda imzalana bilər.

**Eksklav kəndlər məsələsi həllini tapacaq**

Azərbaycan XİN rəhbərinin diqqət çəkdiyi məsələlərdən biri də iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi ilə bağlıdır. Nazir bildirib ki, delimitasiya prosesi və demarkasiya istiqamətində iş davam edir. Bunun üçün hər iki ölkə tərəfindən xüsusi komissiyalar yaradılıb. Komissiyalara Azərbaycan və Ermənistan baş nazirlərinin müavinləri rəhbərlik edir. Müxtəlif dövlət qurumlarının nümayəndələrindən ibarət bu komissiyaların fəaliyyəti mütəmadi şəkildə davam etdirilir.

C.Bayramov bildirib ki, aparılan işlərin ilkin müsbət nəticələrinin də şahidi olmuşuq. Ötən illərdə təxminən 13 kilometrlik dövlət sərhəd xətti delimitasiya edilib. Daha sonra qısa müddət ərzində həmin ərazidə demarkasiya işləri də həyata keçirilib.

Bundan əlavə, komissiyaların fəaliyyətini tənzimləyən və gələcək işini müəyyən edən bir sıra normativ aktlar həm Azərbaycan, həm də Ermənistan tərəfindən razılaşdırılmış şəkildə qəbul olunub və hər iki ölkədə təsdiqlənib. "Eyni zamanda, razılaşdırılıb ki, delimitasiya prosesi şimaldan cənuba - Azərbaycan-Ermənistan sərhədinin Gürcüstanla birləşmə nöqtəsindən başlayaraq İran sərhədinədək davam etdirilsin. Təbii ki, bu proses çərçivəsində eksklav kəndlərlə bağlı məsələlər də öz həllini tapacaq", - deyə C. Bayramov əlavə edib.

Proses Azərbaycan və Ermənistan arasında 2024-cü ilin aprel ayında koordinatların dəqiqləşdirilməsi və Qazax-Tavuş bölgəsində ilk sərhəd dirəyinin quraşdırılması ilə başlayıb. 2024-cü il aprelin 19-da Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası baş nazirinin müavini Şahin Mustafayev və Ermənistan Respublikası baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Delimitasiya Məsələləri Komissiyasının səkkizinci iclası keçirilib. Komissiyanın iclası zamanı bir sıra məsələlər, o cümlədən Qazax rayonunun əvvəllər işğal olunmuş dörd kəndinin Azərbaycan tərəfinə qaytarılması barədə razılıq əldə edilib. Bunlar Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı və Qızılhacılı yaşayış məntəqələridir.

Sərhədlərin müəyyənləşdirlməsi istiqamətində işlər davam etdirilir. Cari il aprelin 29-da Ermənistan Respublikasında, Ağverəndə Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikasının Baş nazirinin müavini Mqer Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın on üçüncü iclası keçirilib. Məmnunluqla qeyd olunub ki, komissiyaların 13-cü iclası növbəti dəfə tərəflərdən birinin ərazisində - Ermənistan Respublikasında, Ağverəndə baş tutub.

Görüş zamanı tərəflər delimitasiya tədbirlərinin həyata keçirilməsi ilə bağlı təşkilati və texniki məsələlər üzrə ətraflı fikir mübadiləsi aparıblar və delimitasiya işlərinin həyata keçirilməsi qaydasına dair təlimat layihələrinin mətnlərini razılaşdıraraq mübadilə ediblər.

***Mübariz ABDULLAYEV***

# Regionun nəqliyyat xəritəsini Azərbaycan müəyyənləşdirir

Özbəkistanın nəqliyyat və logistika üzrə tanınmış eksperti, beynəlxalq "Business Diplomat" platformasının təsisçisi Mirşod Şakirov bildirib ki, Şərqlə Qərbi birləşdirən nəqliyyat marşrutu olan Orta Dəhliz artıq digər coğrafi regionların da traniz arteriyasına çevrilməkdədir. Dəhliz Avrasiya üçün yeni iqtisadi arxitekturanın formalaşdırılması üçün əsas platformalardan birinə çevrilir və burada limanların, dəmir yollarının və logistika mərkəzlərinin inkişafı ilə yanaşı, etimad, beynəlxalq tərəfdaşlıq və insan kapitalı getdikcə daha çox rol oynayır. Qlobal təchizat zəncirlərinin transformasiyası fonunda Mərkəzi Asiya və Cənubi Qafqaz ölkələrinin rolu isə tranzit potensiallarının güclənməsində və dünya miqyasında iqtisadi inteqrasiyaları dərinləşməsində rolu artır.

M.Şakirov vurğulayıb ki, XXI əsrin İpək Yolu hesab edilən Orta Dəhliz həm də sahibkarları bir araya gətirən, real beynəlxalq tərəfdaşlıqlar yarada bilən və ideyaları konkret iqtisadi layihələrə çevirən nəhəng platformadır. Orta Dəhlizin inkişafında Azərbaycanın rolunun müstəsna əhəmiyyət kəsb etdiyini xatırladan

**Azərbaycan yeni Avrasiya iqtisadi məkanının əsas memarı rolunu oynayır**

Mirşod Şakirov bildirib ki, nəqliyyat və logistika infrastrukturuna ardıcıl investisiyalar yatıran Azərbaycan yeni Avrasiya iqtisadi məkanının əsas memarı rolunu oynayır. İllər ərzində ölkə nəqliyyat, liman və dəmir yolu infrastrukturunun inkişafına ardıcıl olaraq sərmayə yatıran Azərbaycan bütün marşrut boyunca gələcək artımın təməlini qoyub. "Bu gün Bakı artıq xəritədə sadəcə tranzit nöqtəsi deyil, yeni Avrasiya iqtisadi məkanının strateji mərkəzlərindən biridir. Mərkəzi Asiya baxımından Azərbaycan Avropa bazarlarına təbii körpüyə çevrilir. Avropa baxımından isə Şərq ilə Qərb arasında ticarət yollarının davamlılığını və şaxələndirilməsini təmin edən vacib tərəfdaşdır. Buna görə də Azərbaycan ilə Özbəkistan arasındakı strateji tərəfdaşlıq bütün Orta Dəhliz arxitekturası üçün tamamilə yeni bir əhəmiyyət kəsb edir".




Hazırda qlobal hublardan biri olan Orta Dəhliz fasiləsiz axıcılığı da məhz Azərbaycanın və yaxın tərəfdaşlarının iradəsi ilə genişlənir. Bu dəhliz Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və daha sonra Türkiyə və Avropa ölkələrinə qədər uzanan böyük bir nəqliyyat arteriyasıdır. Bu layihənin yaradıcılarından və əsas təşəbbüskarlarından biri Azərbaycandır. Rəsmi Bakı Çin və Aİ ilə bu layihənin imkanlarını bir neçə ilə əvvəl geniş müzakirə edib və beynəlxalq nəqliyyat arteriyalarının əsas qovşaqlarından birinə çevirməyi təklif edib. Xüsusilə də son 2 ildə regionda yaranmış yeni geosiyasi düzənin fonunda meydana çıxmış nəqliyyat-logistika xətlərinin şaxələndirilməsi reallıqlara əsaslanaraq ölkəmiz regiondakı marşrutların çoxşaxəliliyinin təmin edilməsində aktiv rol oynamağa başlayıb. Azərbaycan Xəzər regionunu beynəlxalq huba çevirmək üçün Orta Dəhliz xəttinin imkanlarını və gerçəkliyini qlobal səviyyədə bəyan edib və bu təşəbbüslər dünya birliyi tərəfindən birmənalı olaraq dəstəklənib.

**Orta Dəhliz nəhəng arteriyaya çevrilir**

Çin və Azərbaycanın artan təşəbbüskarlığı sayəsində Mərkəzi Asiya ölkələrinin Orta Dəhlizə inteqrasiya olunması təşəbbüsləri də reallaşıb və yeni hüquqi-iqtisadi əsaslar yaranıb. 2024-cü ilin mart ayında Qazaxıstan Prezidenti Qasım-Comərd Tokayevin Azərbaycana dövlət səfəri zamanı Siandan Bakıya gələn konteyner qatarının birgə qarşılanma mərasimi keçirilib və bu, Çin-Qazaxıstan-Azərbaycan nəqliyyat ittifaqının faktiki nümayişi kimi yadda qalıb. Qazaxıstan Orta Dəhlizə rəsmən qoşulub. Digər Mərkəzi Asiya ölkələri də bu dəhlzin imkanlarını dəyərləndirərək eyni mövqe nümayiş etdirir. Özbəkistanın, Qırğızıstanın, Tacikistanın dövlət başçılarının son dövrlərdə Azərbaycana səfərləri zamanı əsas müzakirə mövzulardan biri bölgədəki nəqliyyat bağlantılarının və infrastrukturların Orta Dəhlizlə birləşdirilməsi olub.

Hazırda Orta Dəhliz vasitəsilə daşımaların həcminin artması bu tranzit xəttinin coğrafiyasını əhatə edən ölkələrin, xüsusilə də türk dövlətlərinin vahid nəqliyyat ailəsində birləşməsini də zəruri edir. Şuşada keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) qeyri-rəsmi Zirvə görüşündə də Şərq-Qərb nəqliyyat dəhlizinin ən axıcı qolu kimi Trans-Xəzərin əhəmiyyətinə toxunulub və TDT ölkələri tərəfindən imzalanan Qarabağ Bəyannaməsində Orta Dəhlizə inteqrasiyanın gücləndirilməsində dair niyyətlər ifadə olunub.

**Bolqarıstan və Sloveniya Orta Dəhlizə qoşulur**

Avropa ölkələri də Orta Dəhliz ailəsinə qoşulmaq üçün öz nəqliyyat infrastrukturlarını inteqrasiya etmək yönündə addımlar atmağa başlayıb.

Bolqarıstanın Qara dənizdəki Varna və Burqas limanlarının Orta Dəhliz birləşdirilməsi nəzərdə tutulur. Bununla bağlı Bolqarıstan Prezidenti Rumen Radev və Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Astanada keçirilən Qazaxıstan-Bolqarıstan Hökumətlərarası Komissiyasının iclası çərçivəsində razılaşma əldə edilib.Tərəflər Burqas və Varna dəniz limanlarının Qazaxıstanın strateji nəqliyyat-ticarət marşrutlarına inteqrasiyası üçün birləşdirici dəhliz layihəsi üzərində işləməyə razı olduqlarını bəyan ediblər.

Həmçinin, Sloveniya da nəqliyyat şəbəkəsini Orta Dəhlizə birləşdirmək yönündə praktiki addımlar atmaqdadır. Cari ilin aprelində Sloveniya hökuməti Şərqlə ticarət əlaqələrini genişləndirmək niyyətini bəyan edib. Qazaxıstan və Sloveniyanın dövlət başçıları - Kasım-Jomart Tokayev və Nataşa Pirç Musarın görüşü zamanı nəqliyyat və logistika sektorunda kommunikasiyaların əhatə dairəsinin genişləndirilməsi zamanı rəsmi Lyublyana Orta Dəhlizə qoşulmaq niyyətini ifadə edib. Sloveniya hökuməti Adriatik dənizindəki Koper dəniz limanının digər nəqliyyat xətlərinə inteqrasiya olunması sayəsində Orta Dəhlizə çıxış eldə etmək istəyir. Nataşa Pirç bildirib ki, Qazaxıstanla əldə edilmiş ortaq razılığa əsasən, yaxın vaxtlarda səlahiyyətli orqanlar nəqliyyat sxemlərinin əlaqələndirilməsi üçün konkret tədbirlər görəcək.

**Avropa İttifaqının Xəzər-Qara dəniz bölgəsinə marağı**

Orta Dəhlizdə daşınmaların həcminin və dəhlizin geoiqtisadi əhəmiyyətinin artması Avropa İttifaqının da marağını bu bölgəyə daha çox fokuslayıb, Avropanın əksər ölkələri Mərkəzi Asiya-Xəzər -Avropa coğrafiyasına xüsusi önəm verərək bu bölgənin nəqliyyat infrastrukturlarının yenilənməsinə dəstək niyyətlərini bəyan edirlər. Belçika Krallığının Qazaxıstandakı səfiri Anri Vantigem bildirib ki, Mərkəzi Asiyadan Avropaya nəql edilən daşınmaların intensivliyini daha da artırmaq üçün əhəmiyyətli sərmayə yatırımları nəzərdə tutulur. Onun sözlərinə görə, Mərkəzi Asiya və Xəzər regionu təbii resurs və digər iqtisadi potensial baxımından son illərdə daha da inkişaf edir, bu bölgənin ehtiyatlarının nəqli Avropa üçün xüsusi maraq kəsb edir və resursların daha tez və maneəsiz daşınması üçün bütün zəruri logistika infrastrukturunı yeniləməyə başlamaq lazımdır.

Avropa Komissiyasının beynəlxalq əməkdaşlıq üzrə baş direktoru Henrik Hole Mərkəzi Asiya ölkələrinin Orta Dəhlizin formalaşması istiqamətində səylərini müsbət dəyərləndirib, onların bu iradəsi sayəsində vahid Asiya-Avropa nəqliyyat blokunun tam rentabelli işinin təmin ediləcəyini vurğulayıb. Bu prosesdə Aİ-nin bütün zəruri dəstəkləri verəcəyi xatırlanıb.

**Zəngəzur dəhlizi üçün yeni imkanlar**

Cari ilin mart ayında Bakıda keçirilən "Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu" Beynəlxalq Assosiasiyası (TBNM BA) işçi qrupunun iclasında Orta Dəhlizdə daşınmaların həcminin artırılması üçün mövcud infrastrukturların modernləşdirilməsi və yeni logistika qovşaqlarının tikintisi, dəhliz üzərində yerləşən ölkələrin nəqliyyat-logistika şəbəkələrinin daha sıx əlaqələndirilməsi, rəqəmsal idaretmənin qurulması və digər məsələlər müzakirə olunub. 10 ölkənin dəmir yolu administrasiyası və nəqliyyat şirkətlərinin yüksək səviyyəli rəsmilərinin iştirak etdiyi tədbirdə yeni strateji hədəflər müəyyənləşdirilib. Orta Dəhlizdə yer almaq niyyətlərini bildirən Polşa, Litva, Sinqapur, Bolqarıstan və Rumınıyanın müvafiq qurumlarının nümayəndələri mövcud nəqliyyat şəbəkələrinin əlaqələndirilməsi üçün tədbirlər ssenarisi hazırlancağını vurğulayıblar.

Göründüyü kimi Azərbaycanın əsas oyuncu və mərkəzi coğrafiya olduğu Orta Dəhlizin vahid nəqliyyat arteriyası formalaşmaqdadır. Dəhlizin növbəti dayanacağı Zəngəzur xətti olacaq ki, nəticədə Çin və Mərkəzi Asiya ölkələri ilə Avropa ölkələri arasında nəqliyyat əlaqələrinin şaxələndirilməsi tam təmin ediləcək. İkitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığın simvoluna çevrilən Orta Dəhlizdə Azərbaycan müasir geoiqtisadi və geosiaysi platformalarda yerini və mövqeyini daha da gücləndirəcək.

***ELBRUS CƏFƏRLİ***

# Rəqəmsal idarəetmə dövrü başlayır

Azərbaycan müasir çağırışları və ölkəmizin reallıqlarını nəzərə almaqla rəqəmsal idarəçilik modelinə keçidi özünün prioritetlərindən biri kimi müəyyənləşdirib. Effektiv keçidi təmin etmək məqsədilə institusional və hüquqi bazanın yaradılması istiqamətində müəyyən yol keçilib və ilk nəticələr əldə olunub. Cari ilin yanvar ayında Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə" təsdiqlənib. Fevral ayında dövlətimizin başçısının sədrliyi ilə ölkəmizin yeni rəqəmsal inkişaf strategiyasına həsr olunmuş müşavirə keçirilib və "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı" təsdiqlənib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın sədrliyi ilə Rəqəmsal İnkişaf Şurası çevik fəaliyyət göstərir. İyunun 29-da Mehriban Əliyevanın sədrliyi ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf Şurasının ilk iclası keçirilib. İclasda önəmli müzakirələr aparılıb, Birinci vitse-prezident müvafiq qurumlara öz tapşırıqlarını verib.

Beləliklə, ölkədə rəqəmsal idarəçilik modelinə keçidlə bağlı dövlətin siyasi iradəsi ortadadır. Buna uyğun olaraq da ölkə miqyasında rəqəmsal idarəçilik modelinə keçidin, mərkəzi və yerli icra strukturlarında fəaliyyətlərin elektron platformalar üzərindən həyata keçirilməsinin əhatə dairəsi getdikcə genişlənir.

## "E-müqavilə" sisteminin əhatə dairəsi genişlənir

Yuxarıda xatırlatdığımız "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi haqqında Əsasnamə" sisteminin fəaliyyətinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən etməklə dövlət maliyyəsinin daha səmərəli, şəffaf və çevik idarə olunmasını təmin etmək, maliyyə proseslərində rəqəmsal texnologiyaların tətbiqini genişləndirmək məqsədi daşıyır. Yeni informasiya sistemi dövlət maliyyəsinin planlaşdırılması, icrası, nəzarəti və təhlili sahələrində vahid rəqəmsal mühitin formalaşdırılmasını hədəfləyir.

RDMİS-nin sahibi və operatoru kimi Maliyyə Nazirliyi müəyyənləşdirilib. Sistem müxtəlif istiqamətlərdə rəqəmsal idarəetməni təmin edən 13 əsas altsistemdən ibarətdir. "Büdcə məlumatlarını idarəetmə", "Dövlət maliyyə nəzarəti", "Dövlət proqramlarının və investisiya xərclərinin maliyyələşdirilməsi", "Dövlət borcunun və maliyyə öhdəliklərinin idarə edilməsi", "Dövlət müəssisələrinin rəqəmsal monitorinqi", "e-azadolma", "e-müqavilə", "e-muhasibat", "e-rüsum", "e-mədaxil", "Elektron ciddi hesabat blankları", "Xəzinədarlığın rəqəmsal idarə edilməsi" və "İnzibati cərimələrin mərkəzi avtomatlaşdırılmış lövhəsi" bu altsistemlərə daxildir.

Artıq yeni əsasnaməyə uyğun olaraq praktiki müstəvidə fəaliyyətlər həyata keçirilir. Maliyyə Nazirliyindən verilən məlumata görə, dövlət maliyyəsinin idarə edilməsi sahəsində səmərəliliyin və şəffaflığın artırılması istiqamətində həyata keçirilən islahatların tərkib hissəsi kimi, büdcə təşkilatları tərəfindən mal, iş və xidmətlərin satın alınması üzrə müqavilələrin hazırlanması, razılaşdırılması və icrasına nəzarət proseslərinin həyata keçirilməsi məqsədilə istifadəyə verilən "e-müqavilə" altsistemində cari ilin birinci yarısı üzrə yüksək istifadəçi aktivliyi qeydə alınıb.

Belə ki, hesabat dövrü ərzində 872 satınalan təşkilat sistemdə qeydiyyatdan keçib, 1487 təchizatçı isə platformaya uğurla qoşulub. İstifadəçilər tərəfindən sistemdə imzalanmış müqavilələrin 45,43 faizi xidmətlərin göstərilməsi, 40,2 faizi malların satınalınması, 14,37 faizi isə işlərin görülməsi ilə bağlı olub. Ümumilikdə, qeyd olunan dövr ərzində "e-müqavilə" altsistemi vasitəsilə ümumi məbləği 1 milyard manatdan çox olan 2414 müqavilə bağlanıb.

Qeyd edək ki, "e-müqavilə" altsistem cari ilin 10 aprel tarixindən istifadəyə verilib və "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, satınalma müqavilələrinin elektron formada hazırlanmasını, razılaşdırılmasını və imzalanmasını, bu müqavilələrin sistem üzərindən göndərilməsini və proseslərin vahid platformada izlənilməsini təmin edir.



## 1,5 milyondan çox insan proaktiv təyinat xidmətlərindən faydalanıb

Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ölkə vətəndaşlarına müxtəlif xidmətlərin rəqəmsal platformalar üzərindən təqdim olunmasında yaxşı təcrübə qazanıb. Belə ki, nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) fəaliyyət sahələrində son illər həyata keçirilən islahatlar sosial müdafiə xidmətlərinin daha əlçatan, ədalətli və inklüziv olmasına imkan yaradıb. Burada 2019-cu ildən tətbiq olunan proaktiv mexanizmlər nəticəsində sosial ödənişlər hüququ yaranan şəxslərə müraciət və sənəd təqdim edilmədən, hüquq yarandığı gün elektron sistemlər üzərindən, proaktiv qaydada təyin edilir. Təyinat üçün əvvəllər mövcud olmuş uzun müddət gözləmə halları, bürokratik maneələr, məmur-vətəndaş təmasları, korrupsiya və subyektiv qərarvermə riskləri, habelə artıq sənədləşmə və inzibati yük də bu innovativ həll vasitəsilə aradan qalxıb.

Proaktiv təyinat mexanizmi ilə əlaqədar 60-dan çox qurumun 80-ə yaxın informasiya sistemi ilə inteqrasiya təmin edilib və məlumat mübadiləsi real vaxt rejimində həyata keçirilir. Artıq 1,5 milyondan çox insan proaktiv təyinat xidmətlərindən faydalanıb və bu xidmətlərdən vətəndaş məmnunluğu 98 faizdən çoxdur.



## BMT-nin xüsusi mükafatı

Azərbaycanın sosial müdafiə sahəsində proaktiv xidmət təcrübəsi beynəlxalq səviyyədə böyük maraqla qarşılanıb. Son illər ölkəmizdə aparılan uğurlu sosial islahatlara BMT tərəfindən də yüksək qiymət verilməsinin əyani təsdiqi olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu "Heç kəsi geridə qoymamaq naminə inklüziv və ədalətli xidmətlərin göstərilməsi" kateqoriyası üzrə "Hamı üçün inklüziv və bərabər sosial təminat xidmətləri" təşəbbüsünə görə BMT-nin Dövlət Xidmətləri Mükafatına layiq görülüb.

BMT-yə 63 ölkədən təqdim olunmuş 700 təşəbbüs arasından DSMF və digər ölkələrdən 7 müvafiq dövlət qurumu bu mükafatla təltif edilib. Gürcüstan paytaxtında keçirilən, 100-ə yaxın ölkədən 420 nümayəndənin iştirak etdiyi BMT-nin Dövlət Xidmətləri Forumu çərçivəsində təşkil olunan təltifetmə mərasimində mükafat DSMF-nin İdarə Heyətinin sədri Zəka Mirzəyevə təqdim olunub.




Fond BMT-nin Dövlət Xidmətləri Mükafatına sosial təminat sahəsində son illər həyata keçirdiyi innovativ islahatlara, xüsusilə sosial ödənişlərin proaktiv qaydada təyin olunmasına, rəqəmsal texnologiyalar əsasında qurulmuş vətəndaşyönümlü xidmət modelinə, sosial xidmətlərin əlçatanlığının, operativliyinin, şəffaflığının və inklüzivliyinin artırılması istiqamətində əldə etdiyi mühüm uğurlara görə layiq görülüb.

BMT-nin rəsmi bəyanatına görə, onun Dövlət Xidməti Mükafatı ("UN PSA") dövlət xidmətləri sahəsində mükəmməlliyin tanınmasıdır. Bu mükafatla dünyanın müxtəlif ölkələrində daha səmərəli və çevik dövlət idarəçiliyinin formalaşmasına töhfə verən dövlət qurumlarının yaradıcı nailiyyətləri və fəaliyyət nəticələri təltif edilir.

Qeyd edək ki, Forumun "Heç kəsi geridə qoymamaq üçün inteqrasiya olunmuş xidmət göstərmə sistemləri" mövzusunda keçirilən panel iclasında da Azərbaycanda son illər sosial sığorta və sosial təminat sahəsində aparılan islahatların uğurları, bu sahədə tətbiq olunan innovativ yeniliklər barədə ətraflı məlumat verilib.

*Mübariz FEYİZLİ*

# Ölkədə kommersiya qurumlarının sayı 6,8 faiz artıb







İyul ayının 1-nə respublika üzrə uçotda olan 1 milyon 713 min 937 vergiödəyicisinin 86,8 faizi fiziki şəxslər, 13,2 faizi hüquqi şəxslər və digər təşkilatlar olub.

Dövlət Vergi Xidmətindən bildirilib ki, ötən ilin müvafiq dövrü ilə müqayisədə vergiödəyicilərinin ümumi sayı 5,1 faiz, o cümlədən fiziki şəxslərin sayı 5 faiz, hüquqi şəxslərin sayı 6,1 faiz artıb. İyul ayının 1-nə qeydiyyatda olan kommersiya qurumlarının sayı 210 min 384 təşkil edib ki, bu da əvvəlki illə müqayisədə 6,8 faiz çoxdur.

İyun ayında 1191 vahid kommersiya qurumu dövlət qeydiyyatından keçib. Onların 87,7 faizi yerli investisiyalı, 12,3 faizi isə xarici investisiyalı müəssisələrdir. Kommersiya qurumlarının 84,3 faizi elektron qaydada qeydiyyata alınıb. Yanvar-iyun aylarında qeydiyyatdan keçmiş yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin e-qeydiyyatının xüsusi çəkisi 97 faiz təşkil edib.

İyulun 1-nə dövlət qeydiyyatında olan kommersiya hüquqi şəxslərin 92,2 faizi məhdud məsuliyyətli cəmiyyət formasında yaradılıb.

# Müdafiə Nazirliyi və İRİA kibertəhlükəsizlik üzrə əməkdaşlığı genişləndirir

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyində Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndələrinin görüşü keçirilib. Bununla bağlı Müdafiə Nazirliyinin məlumatında bildirilib ki, görüşdə hər iki qurum arasında rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik və innovasiya sahələrində görülən işlər, həmçinin bu istiqamətlər üzrə əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər ölkədə rəqəmsal transformasiya prosesinin sürətləndirilməsi, informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində dövlət qurumları arasında əməkdaşlığın genişləndirilməsi, eləcə də peşəkar kadr hazırlığının əhəmiyyətini xüsusi vurğulayıblar.

Qeyd olunub ki, bu istiqamətdə həyata keçirilən tədbirlər Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə müəyyən edilmiş dövlət siyasətinə, o cümlədən "Rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün Fəaliyyət Planı"nın icrası çərçivəsində qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə xidmət edir.

Azərbaycan Respublikası Müdafiə Nazirliyi

Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi

Bildirilib ki, cari ilin iyun ayında Birinci vitse-prezident Mehriban Əliyevanın sədrliyi ilə keçirilən Rəqəmsal İnkişaf Şurasının iclasında da Fəaliyyət Planının icrası ilə bağlı görülmüş işlər, əldə olunan nəticələr və qarşıdakı dövr üçün müəyyən edilmiş prioritet vəzifələr geniş müzakirə olunub. Bu baxımdan, dövlət qurumlarının kibertəhlükəsizlik sahəsində institusional əməkdaşlığının gücləndirilməsi və insan kapitalının inkişafı xüsusi əhəmiyyət kəsb edir.

Görüşdə qeyd edilib ki, İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (İRİA) tabeliyində Azərbaycan Kibertəhlükəsizlik Mərkəzi tərəfindən Müdafiə Nazirliyinin əməkdaşları üçün mütəmadi olaraq informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahələrini əhatə edən peşəkar kurslar və təlimlər təşkil edilir. Həyata keçirilən bu tədbirlərin hərbi qulluqçuların informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində peşəkarlığının artırılmasına, müasir kibertəhdidlərə qarşı bilik və bacarıqlarının təkmilləşdirilməsinə, eləcə də dövlət qurumları arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə mühüm töhfə verdiyi xüsusi vurğulanıb.



# Azərbaycan diplomatiyası böyük uğurlar qazanır

İyulun 9-da Azərbaycanın diplomatik xidmət orqanlarının yaradılmasından 107 il ötdü. 9 İyul - Azərbaycan Respublikasının diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı ilə əlaqədar Xarici İşlər Nazirliyinin rəhbər heyəti və kollektivi Fəxri və Şəhidlər xiyabanlarını ziyarət ediblər. Daha sonra XİN-in kollektivi Bakıda Zəfər parkını ziyarət edərək abidə önünə əklil qoyub, gül dəstələri düzüb.

**Xalq Cümhuriyyətinin davam edən ənənəsi**

Qeyd edək ki, 1919-cu il iyulun 9-da Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın qəbul edilməsini əsas götürərək və milli diplomatiyanın həm müsəlman Şərqində ilk demokratik respublikanın yaranmasında, həm də müasir müstəqil Azərbaycan dövlətinin formalaşmasındakı mühüm rolunu nəzərə alaraq Prezident İlham Əliyev 2007-ci il avqustun 24-də Sərəncam imzalayıb. Sərəncama əsasən, hər il iyulun 9-u Azərbaycan diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı kimi qeyd edilir. Azərbaycan diplomatiyasının ilk fəaliyyət dövründə - 1919-cu ildə Bakıda 16 xarici dövlətin diplomatik nümayəndəliyi fəaliyyət göstərirdi. Həmin ölkələr sırasında ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, İsveç, İsveçrə, Belçika, İran, Polşa və Ukrayna da yer alırdı. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransında Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi de-fakto tanındıqdan sonra hökumət Qərbi Avropa və Amerika ölkələrində diplomatik nümayəndəliklərin yaradılması ilə bağlı qanun layihəsi hazırladı. Bu təşəbbüs gənc dövlətin beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi baxımından mühüm addım idi. Lakin 1922-ci il dekabrın 30-da Moskvada Birinci Ümumittifaq Sovetlər Qurultayında SSRİ-nin yaradılması haqqında müqavilənin imzalanması ilə Azərbaycanın müstəqil xarici siyasət fəaliyyəti tamamilə dayandırıldı. Nəticədə, 1923-cü il oktyabrın 8-də Azərbaycan SSR Xalq Komissarları Sovetinin qərarı ilə Türkiyə və İran istisna olmaqla, ölkədə fəaliyyət göstərən bütün diplomatik nümayəndəliklər ləğv edildi.

İkinci Dünya müharibəsinin sonlarına yaxın - 1944-cü ildə sovet hakimiyyəti strateji maraqlarını nəzərə alaraq digər müttəfiq respublikalar kimi Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığını da təsis etdi. Bununla belə, bu qurum uzun illər ərzində yalnız formal fəaliyyət göstərdi.

**Müstəqil Azərbaycanın müstəqil xarici siyasət kursu**

Azərbaycan 1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyini bərpa etdikdən sonra qısa müddətdə dünyanın bir çox ölkələri və BMT tərəfindən tanındı. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra milli dövlət quruculuğu prosesi Xarici İşlər Nazirliyi sistemini də əhatə etdi. Məhz həmin dövrdə Azərbaycanın xarici siyasətinin strateji istiqamətləri müəyyənləşdirildi. Bu gün Heydər Əliyevin müəyyən etdiyi xarici siyasət kursu Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısının rəhbərliyi ilə milli maraqlara söykənən, müstəqil, çoxşaxəli, balanslaşdırılmış və fəal xarici siyasət həyata keçirilir. Etibarlı tərəfdaş kimi tanınan ölkəmizin xarici siyasət uğurları qonşu dövlətlərlə və digər ölkələrlə qarşılıqlı maraqlara əsaslanan bərabərhüquqlu əməkdaşlıq münasibətlərinin qurulmasına istinad edir. Xarici siyasətdə əldə olunan uğurlar 2020-ci ildə Vətən müharibəsi dövründə də özünü aydın şəkildə göstərdi. Məhz həyata keçirilən məqsədyönlü diplomatiya nəticəsində Azərbaycanın haqlı mövqeyi beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndi.

Qeyd edək ki, Azərbaycanın beynəlxalq və regional səviyyədə nüfuzu ildən-ilə artır. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, daha sonra isə 2017-2019-cu illər üçün 176 dövlətin dəstəyi ilə BMT-nin İqtisadi və Sosial Şurasına üzv olması ölkəmizin diplomatik uğurlarının mühüm göstəricilərindəndir. Bununla yanaşı, Azərbaycanın 2019-2023-cü illərdə 120-dən çox ölkəni birləşdirən Qoşulmama Hərəkatına sədrlik etməsi qlobal diplomatik nüfuzunun daha da möhkəmlənməsinə xidmət edib. Bu uğurların davamı olaraq 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un Azərbaycanda keçirilməsi ölkəmizə göstərilən beynəlxalq etimadın və yüksək nüfuzun növbəti təsdiqi oldu. Regionun aparıcı dövləti kimi tanınan Azərbaycan bu gün qlobal səviyyədə də fəal və prinsipial mövqeyi ilə seçilir.

Eyni zamanda, Azərbaycan Türk Dövlətləri Təşkilatı, MDB, Avropa İttifaqı, NATO, Şanxay Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası, Afrika İttifaqı və digər beynəlxalq qurumlarla səmərəli əməkdaşlıq edir, həmin təşkilatların fəaliyyətində mühüm rol oynayır. Qazanılan nailiyyətlər qarşıda yeni vəzifələr müəyyənləşdirir. Bu isə Azərbaycanın uzunmüddətli milli maraqlarının təmin olunması baxımından əlavə imkanlar yaradır. Xarici siyasətin əsas prioritetləri sırasında ölkəmizin müstəqilliyinin və suverenliyinin daha da möhkəmləndirilməsi, beynəlxalq tərəfdaşlarla qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi, eləcə də regional və qlobal təhlükəsizliyə töhfə verilməsi xüsusi yer tutur.

Milli maraqların təmin olunması məqsədilə ölkəmiz dəyişən geosiyasi şəraitə çevik uyğunlaşaraq məsuliyyətli və konstruktiv diplomatiya həyata keçirib, ikitərəfli və çoxtərəfli əməkdaşlıq mexanizmlərini daha da gücləndirib, beynəlxalq nüfuzunu və təsir imkanlarını artırıb.

**Diplomatik nailiyyətlər davamlıdır**

2025-ci ildə Vətən müharibəsində Qələbənin, ərazi bütövlüyünün və tarixi ədalətin bərpasının beşinci ildönümü qeyd olunarkən regionda dayanıqlı sülhün təmin olunması istiqamətində mühüm addımlar atılıb. Azərbaycan və Ermənistan arasında münasibətlərin suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında normallaşdırılması ölkəmizin regional siyasətinin əsas istiqamətlərindən biri olub. Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan, Amerika Birləşmiş Ştatları və Ermənistan liderlərinin iştirakı ilə keçirilən Zirvə görüşü regionun gələcək inkişafı baxımından mühüm əhəmiyyət kəsb edib. Görüş zamanı Azərbaycan və Ermənistan liderləri tərəfindən Birgə Bəyannamə imzalanıb, ABŞ Prezidenti isə sənədə şahid qismində qoşulub. Eyni zamanda, "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş"in paraflanması və əldə olunan digər razılaşmalar bölgədə yeni geosiyasi reallıqların formalaşmasına və davamlı sülh üçün əlverişli şəraitin yaranmasına töhfə verib.

Sammit çərçivəsində Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsini nəzərdə tutan "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" (TRIPP) layihəsi üzrə də razılıq əldə olunub. Bununla yanaşı, ATƏT-in Minsk Prosesi və əlaqədar strukturların fəaliyyətinin başa çatdırılması ilə Azərbaycan-Ermənistan münaqişəsinin beynəlxalq gündəlikdən çıxarılması istiqamətində mühüm mərhələ tamamlanıb.

Azərbaycan cari ildə də sülh prosesinin irəlilədilməsi məqsədilə ikitərəfli, birbaşa və prinsipial dialoqa sadiq qalacağını bəyan edib. Bu çərçivədə paraflanmış sülh sazişinin imzalanması və ratifikasiyası, Ermənistan Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması, eləcə də TRIPP layihəsi üzrə öhdəliklərin tam icrası əsas prioritetlər kimi qiymətləndirilir.

Diplomatik xidmət sistemində əsas prioritetlərdən biri peşəkar, beynəlxalq standartlara cavab verən, çevik düşüncə tərzinə və yüksək strateji təhlil bacarığına malik diplomatların hazırlanmasıdır. Bu məqsədlə Azərbaycan diplomatik xidmətində kadr potensialının gücləndirilməsi və peşəkarlığın artırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu sahədə əsas istiqamətlərdən biri diplomatik xidmətə qəbul prosesinin şəffaf və açıq müsabiqə əsasında təşkil edilməsidir. Namizədlərin peşəkar bilikləri, xarici dil bacarıqları, analitik düşüncə qabiliyyəti və beynəlxalq münasibətlər sahəsində hazırlıq səviyyəsi seçim zamanı başlıca meyarlar hesab olunur. Diplomatların bilik və bacarıqlarının davamlı inkişafı məqsədilə ölkə daxilində və xaricdə ixtisasartırma proqramları təşkil edilir. Bu proqramlar diplomatik protokol, beynəlxalq hüquq, çoxtərəfli diplomatiya, danışıqların aparılması, strateji kommunikasiya və rəqəmsal diplomatiya kimi mühüm istiqamətləri əhatə edir. Bununla yanaşı, diplomatlarımız beynəlxalq təşkilatlarda və tərəfdaş ölkələrin diplomatik akademiyalarında və institutlarında təcrübə keçərək peşə hazırlıqlarını daha da təkmilləşdirirlər.

*Nardar BAYRAMLI*

# Qlobal enerji bazarı: Risklər və gözləntilər

Qlobal enerji bazarı lakmus kağızına bənzəyir və yalnız iqtisadi proseslərdən təsirlənmir. Geosiyasi amillər, xüsusilə də güc mərkəzlərinin hansısa maraqları naminə manevr etmələri də dərhal burada reaksiya doğurur.

Hazırda qlobal enerji bazarı əsas etibarı ilə Şərqi Avropada və Yaxın Şərqdə uzanan müharibələrdən, Hörmüz boğazı ətrafında yaranan gərginlikdən təsirlənir. Tez-tez adekvat olmayan və proqnozlardan daha çox kənara çıxan proseslər izlənilir - tələblə təklif arasında disbalans yaranır, bir sıra hallarda iqtisadi əsas olmadan qiymətlər dəyişir, istehsal və istehlak həcmlərində kəskin azalma və yaxud artma müşahidə edilir.

## Ehtiyatların azalması fonunda artım proqnozu da verilir

Bu günlərdə ABŞ-ın Enerji İnformasiya Administrasiyası (EIA) hesabatını təqdim edərək qlobal enerji, xüsusilə də neft bazarının hazırkı vəziyyətinə aydınlıq gətirib. Bildirilir ki, qlobal neft ehtiyatları ilin ikinci rübündə gün-




dəlik orta hesabla 5,1 milyon barel azalıb, üçüncü rübdə isə əlavə 2,2 milyon barel azalacağı gözlənilir.

Qeyd olunur ki, hazırda qlobal neft tələbatı azalma mərhələsinə qədəm qoyub. Yanacaq qiymətlərinin artması, təchizat çatışmazlığı və hökumətlərin yanacaq istehlakını məhdudlaşdırmaq üçün gördüyü tədbirlər son aylarda neft tələbatını aşağı salıb və beləliklə, qlobal neft ehtiyatlarının azalması müəyyən dərəcədə məhdudlaşıb. Qlobal neft istehlakının bu il orta hesabla gündə 1,2 milyon barel azalacağı, bu azalmanın 800 barelinin isə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) üzv olmayan ölkələrdən gələcəyi gözlənilir.

Lakin məlum səbəblərdən ayrı-ayrı ölkələrin istehsalı məhdudlaşdırması, qlobal enerji bazarında yanacaq tədarükünün azalması fonunda perspektiv üçün artım proqnozları da verilir. Cari ilin üçüncü rübünün böyük hissəsini əhatə edəcək keçid dövründən sonra neft bazarlarının tədarük bolluğuna qayıtması ehtimal edilir. Təklifin istehlakdan daha sürətli artmağa davam etməsi səbəbindən neft qiymətlərinə aşağı təzyiqin olacağı gözlənilir. Neft qiymətlərinin aşağı düşməsi və təklif axınlarının tam normal vəziyyətə qayıtması ilə neft tələbatının gələn il bərpa olunacağı proqnozlaşdırılır. Qlobal neft istehlakının 2027-ci ildə gündəlik 2 milyon barel artaraq 2025-ci ilin orta göstəricisini sutkada 800 min barel üstələyərək 104,8 milyon barelə çatacağı proqnozlaşdırılır.

Qlobal neft ehtiatları ilə bağlı da belə nikbin proqnozlar verilir. Neft ehtiyatlarının bu ilin dördüncü rübündə gündəlik orta hesabla 2,7 milyon barel, 2027-ci il ərzində isə sutkada orta hesabla 5 milyon barel artacağı gözlənilir.

Bu cür nikbin proqnozlara əsas verən amillər də var. Bildirilir ki, bəzi Körfəz istehsalçıları Hörmüz boğazından istifadə etmədən daşınmaları alternativ marşrutlara yönləndiriblər, bundan başqa, Yaxın Şərqdən kənarda, əsasən Şimali və Cənubi Amerikada istehsalçılar xam neft ixracını artırıblar. Həmçinin ABŞ-ın və bəzi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv ölkələrin strateji neft ehtiyatlarından bazara neft tədarükü bərpa olunub. Neft axınlarının bərpası ilə Yaxın Şərqdə xam neft istehsalının əvvəllər proqnozlaşdırılandan daha məhdud şəkildə azalması gözlənilir. İyun ayında istehsal azalmaları orta hesabla gündəlik 8,3 milyon barel təşkil edib ki, bu da may ayında qeydə alınan sutkalıq 11,2 milyon barel pik səviyyəsindən aşağıdır. İlin sonuna qədər xam neft istehsalı və ticarətinin əksəriyyətinin münaqişədən əvvəlki səviyyələrə yaxınlaşacağı gözlənilsə də, dördüncü rübdə gündəlik orta hesabla 1,4 milyon barel istehsalın dayandırılacağı, bu istehsal gücünün böyük hissəsinin isə 2027-ci ilin birinci rübündə yenidən bərpa olunacağı proqnozlaşdırılır.

## Səudiyyə Ərəbistanından sürpriz qiymət endirimləri




Bu arada dünyanın ən böyük neft istehsalçılarından olan Səudiyyə Ərəbistanından sürpriz sayıla biləcək qiymət endirimləri xəbəri gəlib. Verilən məlumatda bu ölkənin Asiya bazarı üçün "Arab Light" markalı xam neftin rəsmi satış qiymətinə son 26 ildə ən böyük endirim etdiyi bildirilir.

Səudiyyə Ərəbistanının dövlət neft şirkəti "Aramco" gələn ay üzrə "Arab Light" markalı xam neftin bir barelinin qiymətini 11 dollar endirəcək və bu, regional etalon qiymətdən 1,50 dollar aşağı olacaq. Səudiyyə Ərəbistanı 2020-ci ildən bəri ilk dəfə olaraq nefti endirimli qiymətə satacaq. "Aramco" əvvəllər bu növ nefti yalnız 2020-ci və 2015-ci illərdəki qiymət "müharibələri" zamanı endirimlə satmışdı.

Bundan başqa, fevral ayından bəri ilk dəfə olaraq Səudiyyə Ərəbistanı xam neftini daşıyan iki supertanker ABŞ-a doğru hərəkət edib. Gəmi izləmə məlumatlarına görə, sözügedən iki tanker martın əvvəlində yüklənib və iyunun sonuna qədər Körfəzdə qalıb.

ABŞ-ın Energetika Nazirliyinin məlumatlarına görə, fevralın 28-də Yaxın Şərqdə başlayan müharibədən əvvəl Səudiyyə Ərəbistanı adətən gündəlik təxminən 300 min barel xam nefti ABŞ-ın Körfəzdəki və Qərb sahilindəki neft emalı zavodlarına göndərirdi.

## Avropada strateji səhvin bərpası - atom enerjisinə qayıdış

Qlobal yanacaq bazarında izlənilən proseslər fonunda Avropada atom enerjisinə qayıdış gündəmə gəlib. "Avropa İttifaqının atom energetikasının payının azaldılması Avropa üçün strateji səhv olub". Bu barədə Avropa Komissiyasının prezidenti Ursula Fon der Lyayen Fransada keçirilən nüvə energetikası üzrə sammitdə bildirib."1990-cı ildə Avropada elektrik enerjisinin üçdəbiri atom elektrik stansiyalarında istehsal olunurdu. Hazırda bu göstərici təxminən 15 faizdir. Atom energetikasının payının azaldılması düşünülmüş seçim idi və geriyə baxdıqda demək olar ki, Avropanın etibarlı və əlçatan aşağıkarbonlu enerji mənbəyindən imtina etməsi strateji səhv olub", - deyə o bildirib.

Fon der Lyayenin sözlərinə görə, Avropa Komissiyası kiçik modul reaktorlarla bağlı yeni Avropa strategiyası təklif edir. Bu reaktorların Avropada ən geci 2030-cu illərdə istismara verilməsi nəzərdə tutulur. Aİ rəsmisi bildirib ki, kiçik modul reaktorlar ənənəvi nüvə reaktorları ilə yanaşı "çevik, təhlükəsiz və səmərəli" Avropa enerji sistemində əsas rol oynamalıdır. Bu, həmçinin Aİ-nin fosil yanacaq idxalından asılılığını azaltmalıdır.

Bundan əlavə, Avropa İttifaqı innovativ nüvə texnologiyalarına investisiyaları dəstəkləmək üçün 200 milyon avro məbləğində zəmanət təqdim edəcəyini bildirib.

*Mübariz FEYİZLİ*

# Yeni qaydalar lazımdırmı?

REAL Partiyasının sədri, iqtisadçı Natiq Cəfərli sosial media hesabında (Fb) Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) ölkəmizə idxal olunan heyvanların daşınması ilə bağlı tətbiq etməyə hazırlaşdığı yeni qaydaları tənqid edib. Sitat: "AQTA-nın rəsmi məlumatına görə, bundan sonra ölkəyə idxal olunan heyvanlar yalnız ixtisaslaşdırılmış nəqliyyat vasitələri ilə daşınmalıdır. İstifadə olunan avtomobillər mütləq şəkildə Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının "Quruda yaşayan heyvanların sağlamlıq məcəlləsi"nin sərt tələblərinə cavab verməlidir. Yenə aşırı tənzimləmə, yenə müdaxilə, yenə Avropa Birliyini iqtisadi "loser"ə çevirən səhvlərin təkraralanması. Əl şəkin insanlardan, imkan verin biznes qura, inkişaf etdirə bilsinlər, bu qədər mənasız tənzimləmə, qadağa, cərimə nəyə lazımdır axı?! Qoyun-quzunu limuzində daşımalıdırlar?! Dədə-babalarımız arabalarda daşıyıblar, nəsə olub o heyvanlara?!. Ölkədə onlarla məzmunsuz qurum var, əksəriyyəti ləğv edilməlidir, "kiçik və effektiv" hökumət modelinə təcili keşməliyik, yoxsa iqtisadi daralma sürətlənəcək, iqtisadiyyatın çarxları bir-bir sıradan çıxacaq. Belə qərarlar ancaq qiymətləri artırır, biznes əlavə xərci qiymətin üzərinə gəlir - yəni, AQTA bu qərarla zatən sürətlə artan ət qiymətlərini yenə bahalaşdırır".



*https://www.facebook.com/natig.jafarli/posts/10238969822957728?ref=embed_post*

Məsələ ilə bağlı Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi də öz mövqeyini bildirib. Qurumun açıqlamasında bildirilir ki, 2027-ci il yanvarın 1-dən etibarən heyvanların daşınması ilə bağlı yeni tələblər müəyyən edilib. Sitat: "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) ölkəyə idxal olunan heyvanların sağlamlığının qorunması, yoluxucu xəstəliklərin yayılma riskinin azaldılması və heyvan rifahının yaxşılaşdırılması məqsədilə daşınma şərtlərinə dair yeni tələblər müəyyən edib. Qərara əsasən, 2027-ci il yanvarın 1-dən etibarən ölkəyə idxal olunan heyvanların daşınması yalnız Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin tələblərinə cavab verən ixtisaslaşdırılmış nəqliyyat vasitələri ilə həyata keçiriləcək. Keçid dövrü çərçivəsində, 2027-ci il yanvarın 1-dək heyvanların uyğunlaşdırılmış nəqliyyat vasitələrində bir mərtəbədə daşınmasına icazə veriləcək. Maksimum yüklənmə norması iribuynuzlu heyvanlar üçün 60, xırdabuynuzlu heyvanlar üçün isə 150 baş müəyyən olunub. Yeni tələblər heyvanların təhlükəsiz və rifah standartlarına uyğun daşınmasını, həmçinin sərhəd baytarlıq nəzarətinin effektivliyinin artırılmasını hədəfləyir. AQTA sahibkarları müəyyən edilmiş keçid dövründə fəaliyyətlərini yeni qaydalara uyğunlaşdırmağa çağırır".

*https://afsa.gov.az/az/xeberler/heyvanlarin-dasinmasi-ile-bagli-yeni-telebler-mueyyen-edilib*

AQTA mediaya açıqlamasında isə heyvanların idxalı zamanı istifadə olunan nəqliyyat vasitələrinin yalnız daşınma funksiyasını yerinə yetirmədiyini, onların həm də sərhəd baytarlıq nəzarəti məntəqələrində heyvanların təhlükəsiz şəkildə boşaldılması, fərdi kliniki müayinəsi və zərurət olduqda laborator müayinələr üçün nümunələrin götürülməsi baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayır. İxtisaslaşdırılmış nəqliyyat vasitələrinin konstruksiyası onların effektiv yuyulması, təmizlənməsi və dezinfeksiya edilməsinə imkan verir ki, bu da yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınmasında əsas biotəhlükəsizlik tələblərindən biridir.

*https://redaktor.az/news/social/334339-olkede-xususi-heyvan-dasiyan-neqliyyat-vari*

Bu qərarın ət idxalında əlavə xərc yükü yaradacağı da düşündürücü məsələdir. Ekspertlər hesab edirlər ki, idxal edilən heyvanları ölkəyə gətirmək üçün xüsusi daşınma vasitələri, yəni nəqliyyat vasitələrinin tələb olunması sahibkarları yeni nəqliyyat vasitələri almağa və ya icarəyə götürməyə məcbur edəcək ki, bu da əlavə xərc yükü deməkdir. İqtisadçı Xalid Kərimli mediaya açıqlamasında bildirib ki, bu cür nəqliyyat vasitələrinin sayı o qədər də çox deyil. Sitat: "Diri heyvan idxalının artması fonunda daşıma xərclərinin yüksəlməsi daxili bazarda ətin qiymətində müəyyən artıma səbəb ola bilər. Təbii ki, bu artım idxal qiymətlərinə də təsir edəcək. Satıcılar və idxalçılar logistika xərclərindəki artımı məhsulun maya dəyərinə daxil edəcəklər".

Nəzərə alsaq ki, Azərbaycan il ərzində 400 min tondan artıq ət idxal edir, bu kontekstdə böyük bir həcmdə məhsulun daşınmasına minlərlə nəqliyyat vasitəsi lazımdır. Belə ki, 2025-ci ildə ölkəyə xaricdən 115 min 301 baş iribuynuzlu və 306 min 591 baş xırdabuynuzlu heyvan gətirilib. Bu sayda malın daşınmasında adətən orta, iri həcmli mövcud nəqliyyat vasitələrindən istifadə olunub. Ona görə də, ölkəyə diri heyvan gətirilərkən yeni avtomobillərin tələbatı ödəyib-ödəməyəcəyi də sual doğurur.

Heyvan əti idxalında sözsüz ki, yoluxucu xəstəliklərin qarşısının alınması, əhalinin sağlamlığının qorunması ümdə vəzifələrdən biridir və həmin tədbirlər davam etdirilməlidir.

Ancaq məsələ ondadır ki, heyvanların idxalı zamanı zoonoz xəstəliklərə şübhələri aşkar etmək üçün kifayət qədər ciddi nəzarət, sərhəd-buraxılış rejimi mövcuddur.

Ölkəyə heyvan idxal edən sahibkarlar malı mənşə ölkəsindən yüklənməzdən əvvəl AQTA-dan idxal icazəsi sənədi alırlar. Həmin sənəd 6 ildən artıqdır ki, qüvvədədir, 2020-ci ildən tətbiq olunur və heyvan məhsulları idxal prosesində baytarlıq tələblərinə əsasən nəzarətdən keçir.

*https://afsa.gov.az/az/xeberler/aqta-nin-heyvan-ve-heyvan-menseli-mehsullar-idxal-eden-sahibkarlara-muracieti739*

Habelə idxalla məşğul olan sahibkarlar müvafiq qeydiyyat və icazə sistemi əsasında mal idxal edir ki, bu hüquqi prosedurla reyestrləşdirilir. Yəni, idxal zamanı heyvanların sağlamlığını və yoluxucu xəstəliklərin yayılma risklərini aşkar edən bir mexanizm, icazə sistemi mövcuddur.

Bundan başqa, ölkəmizə idxal edilən hər bir heyvanın sərhəddə mənşəyi, sağlamlığı barədə beynəlxalq baytarlıq sertifikatları yoxlanılır. Heyvanların keçdiyi ərazidə və çıxdığı təsərrüfatda xüsusi təhlükəli xəstəliklərin olmamasına diqqət yetirilir. Nazirlər Kabinetinin qərarına əsasən "Dövlət baytarlıq nəzarətində olan məhsullara, o cümlədən idxal və ixrac edilən yüklərə dövlət baytarlıq nəzarətinin təşkili, idxal-ixrac edilən heyvanların, heyvan mənşəli məhsulların və xammalın baytarlıq (baytarlıq-sanitariya) vəziyyətinin yoxlanılması və müvafiq baytarlıq sənədinin verilməsi, dövlət baytarlıq nəzarətində olan yüklərin Azərbaycan Respublikasına gətirilməsi və ölkə daxilində daşınması Qaydaları" mövcuddur. Həmin qərarın tətbiqi sərhəddə yoxlanış zamanı heyvanların sağlamlığı barədə bütün məlumatları müəyyən etməyə imkan verir.



*https://faolex.fao.org/docs/pdf/aze159149.pdf*

Dövlət sərhədində heyvanların idxalından sonra lazımi hallarda AQTA-nın laboratoriyalarında analizlər üçün nümunələr götürülür. Bu, prosedur da idxal zamanı şübhə və ya sağlamlıq amilini təmin edən mexanizmlərdən biridir.

Bütün bunlar onu göstərir ki, heyvanların mənşə ölkəsindən Azərbaycana çatdırılması zamanı kifayət qədət yoxalama-nəzarət sistemi mövcuddur və sağlamlıqla bağlı məsələləri tənzimləmək üçün hazırkı qaydalar yetərlidir. Həmin qaydalar ölkə ərazisinə xaricdən keçə biləcək xüsusi təhlükəli xəstəliklərdən qorunmanı tam təmin edir. Məhz bu qaydalar sayəsində AQTA indiyə qədər zoonoz xəstəliklərə şübhəli heyvanların ölkəyə idxalının qarşısını alıb. Necə ki, sonuncu dəfə , 2026-cı il mayın 5-də Gürcüstandan Azərbaycana gətirilən 89 baş kəsimlik diri iribuynuzlu heyvan AQTA-nın "Qırmızı Körpü" Qida Təhlükəsizliyi Nəzarəti Məntəqəsində kliniki və laborator müayinədən keçirilərkən 4 baş heyvanda zoonoz xəstəliklərinin əlamətləri aşkarlanıb və heyvanların ölkəyə idxalına icazə verilməyib.

*https://afsa.gov.az/az/xeberler/aqta-zoonoz1*

Bu o deməkdir ki, mövcud nəzarət sistemi və şübhəli xəstəlikləri aşkar etmək üçün hüquqi çərçivə, laborator arxitektura idxalı tam izləməyə imkan verir.

Bu baxımdan heyvanlara qarşı yeni sərt karantin qaydalarının qoyulması və bunun logistika baxımından idxal sahibkarlarına, eləcə də daxili bazarda qiymət artımlarına mənfi təsirləri ciddi şəkildə təhlil edilməlidir.

Bir məqama da xüsusi diqqət yetirmək lazımdır, Azərbaycan milli ərzaq təhlükəsizliyini möhkəmləndirmək üçün aqrar sahənin inkişafına dair yeni Dövlət Proqramı qəbul edib və sənədin strateji məramı, məqsədi yerli istehsalın, o cümlədən heyvandarlıq məhsullarının istehsalının artırılmasına nail olmaqdır. Başlıca məqsədlərdən biri həm də yerli heyvan əti istehsalını tam daxili tələbatı təmin edəcək səviyyəyə çatdırmaqla, bazarda qiymət stabilliyini qorumaqdır. Belə bir məsuliyyətli dövrdə- strateji hədəflərə doğru ardıcıl addımların atıldığı keçid mərhələsində daxili bazarda tələb-təklifi motivasiyaedən tədbirlər görmək əvəzinə, idxal tədarükçülərinin xərclərini artıracaq qərarların verilməsi nə qədər doğrudur?

Kənd təsərrüfatı çox çətin və davamlı diqqət tələb edən sahədir, adından göründüyü kimi təsərrüfatın mənbəyi kəndə bağlıdır, ələlxüsus da heyvandarlığın. Ona görə də, heyvandarlığı sivil şəhər-logistika qaydaları, Ümumdünya tələbləri ilə yükləməkdənsə, kəndin və kəndlinin öz ənənələri ilə inkişaf etdirmək daha faydalı olardı.

***Elbrus Cəfərli***

# Qeyri-neft ixracının həcmi və coğrafiyası böyüyür

## Azərbaycan yanvar-may aylarında 1,5 milyard həcmində qeyri-neft məhsulları ixrac edib

2026-cı ilin yanvar-may aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı (qeyri-monetar qızıl istisna olmaqla) 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 16,6 faiz artaraq 1,5 milyard dollar təşkil edib. Cari ilin may ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı isə ötən ilin eyni dövrü ilə müqayisədə 27,2 faiz artaraq 396,7 milyon dollara bərabər olub. Ümumilikdə bu dövr ərzində yeyinti məhsulları üzrə ixrac 23,8 faiz artaraq 144,6 milyon dollara, qeyri-yeyinti məhsullarının ixracı isə 30,7 faiz artaraq 288,5 milyon dollara yüksəlib. Cari ilin ilk beş ayında ixrac olunan şəkər ötən ilin müvafiq dövrünə nəzərən 4,2 dəfə, pambıq iplik 2,4 dəfə, bitki və heyvan mənşəli piylər və yağlar 57 faiz, alüminium və ondan hazırlanan məmulatlar 44,6 faiz, pambıq lifi 25 faiz, meyvə-tərəvəz 18,6 faiz, çay 16,8 faiz, spirtli və spirtsiz içkilər isə 6 faiz artıb.

Yanvar-may aylarında aqrar məhsullar üzrə ixrac 25,2 faiz artaraq 414,5 milyon dollar, aqrar-sənaye məhsulları üzrə ixrac 39 faiz artaraq 160,5 milyon dollar təşkil edib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 28,8 faiz artaraq 575,1 milyon dollara bərabər olub. Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl 167,6 milyon dollar dəyər ifadəsi ilə birinci olub. Bu siyahıda pomidor (119,8 milyon dollar) ikinci, mis filizləri (112,5 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

**İxrac ölkələri arasında Rusiya və Türkiyə liderdir**

İlk beş ayda qeyri-neft məhsullarının ixracında Rusiya Federasiyası 433,7 milyon dollarla birinci, Türkiyəyə 306,1 milyon dollarla ikinci, Gürcüstan isə 229,7 milyon dollarla üçüncü yeri tutub. Azərbaycanın İsveçrəyə ixracı isə 178,7 milyon dollara, Ukraynaya 67,9 milyon dollara, bərabər olub.

2026-cı ilin yanvar-may ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycandakı Nümayəndəliyi, "Prime Cotton" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "Baku Steel Company", "AGRARCO" MMC yer alır. Dövlətə məxsus olan şirkətlərin siyahısına isə "SOCAR POLYMER" MMC başçılıq edir. Digər şirkətlərdən "AzerGold", Dövlət Neft Şirkətinin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi", Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərbaycan Hava Yolları" QSC, "Azərenerji", "Socar Cape" və "Naxçıvan Enerji" MMC qeyri-neft ixracında əsas subyektlərdir.







**"Azərkosmos" da ixrac ailəsində payını artırır**

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir. Cari ilin ilk beş ayında Azərbaycanın telekommunikasiya sektorunda da ixracın həcmi və şaxəsi artıb. Azərbaycan Kosmik Agentliyi ("Azərkosmos") dünyanın 33 ölkəsindən olan 90-a yaxın şirkətə 6,9 milyon dollar dəyərində telekommunikasiya xidmətləri ixrac edib. Xidmət ixrac olunan ölkələr arasında Birləşmiş Krallıq, Lüksemburq, Türkiyə, Pakistan, İsveç və Misir böyük paya sahibdir. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 63 faizini təşkil edib. Peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 1,8 milyon dollarla Birləşmiş Krallıq, 1,3 milyon dollarla Lüksemburq, 490 min dollarla Türkiyə, 486 min dollarla Pakistan, 187,2 min dollarla İsveç qərarlaşıb.

**"Azexport" - qeyri-neft ixracını stimullaşdırır...**

Azərbaycanın ixrac siyasətinin müasir platformalarından biri kimi "Azexport" portalı mühüm yer tutur. 9 ilə yaxındır ki, ölkəmizdə istehsal olunan malların vahid elektron məlumat bazası rolunu oynayan portal Azərbaycanda istehsal olunan rəqabətqabiliyyətli və ixracyönümlü məhsulların xarici bazarlarda təşviqinə dəstək verir. "Azexport", həmçinin ölkəmizdə biznes mühitinin yaxşılaşdırılması üçün ixracatçı sahibkarlara nəqliyyat, logistika, ödəniş və sertifikatlaşdırma, sahəsində dəstək göstərir. "Azexport" artıq ixrac sektorunda tərəf kimi xarici ölkələrin biznes nümayəndələri ilə elektron ticarətin intensiv aparılmasını təmin edən çevik bir struktura çevrilib.

"Azexport" portalının qlobal rəqəmsal ticarət platformalarına inteqrasiyası ənənəvi bazarlardan fərqli yeni bazarlara çıxış imkanlarına da əlverişli mühiti təmin edib. Nəticədə portal "Made in Azerbaijan" məhsullarının ixrac istiqamətlərinin genişləndirilməsində də böyük rol oynayan resursa çevrilib. "Made in Azerbaijan" brendi məhsullarının ixrac coğrafiyasını genişləndirmək və yerli istehsalçılara yeni potensial müştərilərin tapılmasında dəstək olmaq məqsədi ilə, daha bir neçə beynəlxalq elektron satış portalları ilə əməkdaşlığa başlanılıb. "Azexport" Azərbaycanda istehsal olunan məhsulların ixracını dəstəkləyən "Alibaba.com", "eBay.com", "Wholesale", "Amazon", "All.biz" kimi dünya elektron ticarət platformalarına inteqrasiya olunub və Azərbaycan məhsullarına beynəlxalq bazarlarda sərfəli potensial alıcı tapmaqda mühüm vasitəçiyə çevrilib.

**İxracatçıların doğma ünvanı - Ticarət Evləri**

Azərbaycanda qeyri-neft ixracının artmasında Ticarət Evlərinin də mühüm əhəmiyyəti var. Azərbaycan məhsullarının xarici bazarlara çıxarılması, satışının təşkili və ələqələndirilməsində Ticarət Evlərinin imkanları kifayət qədər böyükdür. "Made in Azerbaijan" brendi altında qeyri-neft məhsullarının ixracının artırılması məqsədilə xaricdə Ticarət Evləri 2017-ci ildən yaradılmaqdadır. Azərbaycan ötən illərdə Rusiya, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Qətər, Ukrayna, Polşa, Latviya, Çin, Qazaxıstanda Azərbaycanın Ticarət Evləri fəaliyyət göstərir.

Ticarət Evləri Azərbaycan məhsullarının təkcə satışı və tanıdılması üçün əhəmiyyət daşımır, bu cür iqtisadi strukturlar həm də iki ölkə arasında faydalı iqtisadi müzakirələr üçün platforma rolunu oynayır, Azərbaycan ixracatçılarının potensial imkanlarını nümayiş etdirir. Son illərdə Azərbaycanla iqtisadi əlaqələri inkişaf etdirən Çində Azərbaycan Ticarət Evlərinin sayının artması da bunu təsdiqləyir. İndiyədək Çinin Çindao, Canciaciye, Sian, Çendu və Pekin şəhərlərində Azərbaycanın Ticarət Evləri açılıb, eləcə də Şanxay, Harbin, Cinan və Uhan şəhərlərində 4 ticarət bölməsi, Urumçi və Şanxayda isə 3 Şərab Evinin fəaliyyəti təmin edilib.

Eləcə də Körfəz ölkələri ilə Azərbaycan arasında iqtisadi əlaqələrin inkişafında yeni mərhələnin başlanması bu region ölkələrində də ixrac xəritəsinin coğrafiyasını genişləndirib və yeni Ticarət Evlərinin yaradılması işlərini sürətləndirib.

***E.CƏFƏRLİ***

# Ankaradan BƏYANAT!!!

## NATO dövlətləri 50 milyard dollardan artıq yeni tədarük sazişlərini elan edib




**Növbəti görüş yeri Albaniyadır**

Ankarada keçirilən 36-cı NATO Dövlət və Hökumət Başçıları Zirvəsinin yekun bəyanatı qəbul olunub. Bəyanatda üzv dövlətlərin NATO-nun 5-ci maddəsinə, kollektiv müdafiə bəndinə və transatlantik əlaqələrə "sarsılmaz öhdəliklərini" təsdiqləmək üçün Ankarada görüşdüyü qeyd olunur: "Bir müttəfiqə hücum bütün müttəfiqlərə hücum deməkdir. Birliyimiz, həmrəyliyimiz və kollektiv gücümüz azad və demokratik ölkələrdən ibarət olan Alyansımızın 1 milyard vətəndaşı üçün sülh, təhlükəsizlik və rifahın təməli olaraq qalır. Biz çəkindirmə və müdafiəyə 360 dərəcə yanaşmamıza sadiq qalırıq."

Bəyanatda həmçinin qeyd olunur ki, müttəfiq ölkələr Rusiyanın Avro-Atlantik təhlükəsizliyi və sabitliyinə uzunmüddətli təhdidi, eləcə də davam edən terrorizm təhdidi ilə mübarizə aparmaq üçün Haaqa Müdafiə Andını həyata keçirirlər. Sənəddə həmçinin Avropa müttəfiqləri və Kanadanın 2025-ci ilə qədər vacib müdafiə ehtiyaclarına investisiyalarını 139 milyard dollardan çox artırdığı vurğulanır. Bəyanatda investisiyaların müdafiə sənayesini və dayanıqlığını gücləndirdiyi, eyni zamanda lazımi imkanları təmin etdiyi qeyd olunur: "Bu gün Ankarada kollektiv istehsal gücümüzü artırmaq və innovasiyanı sürətləndirmək üçün sənaye ilə işləməyi öhdəmizə götürərək 50 milyard dollardan çox yeni tədarük sazişlərini elan edirik. Müttəfiqlər arasında müdafiə ticarət maneələrini aradan qaldırmaq üçün səylərimizi davam etdirəcəyik və müdafiə sənayesində dərinliyi və əməkdaşlığı maksimum dərəcədə artırmaq üçün NATO tərəfdaşlığından istifadə edəcəyik."

**Ukraynaya iki il üçün 140 milyard avro...**

Bəyanatda daha güclü Avropa və daha güclü NATO daxilində modernləşdirilmiş Alyansın qurulması istiqamətində hədəflər müəyyənləşdirilir, Avropa müttəfiqləri və Kanadanın ABŞ ilə birlikdə Alyansın müdafiəsi üçün daha böyük məsuliyyət daşıdığı vurğulanır. Bəyanatda qeyd olunur ki, NATO-nun çəkindirmə və müdafiəsi kosmik və kiber elementlər tərəfindən dəstəklənən nüvə, ənənəvi və raketdən müdafiə imkanlarının uyğun kombinasiyasına əsaslanır. Bəyanatda həmçinin Ukraynanın transatlantik təhlükəsizliyə töhfə verdiyi qeyd olunur və müttəfiqlərin Ukraynanın azadlığını, suverenliyini və ərazi bütövlüyünü müdafiə etməsinə sarsılmaz dəstəyi vurğulanır. Sənəddə bildirilir ki, müttəfiqlər 2026-cı ilə qədər Ukraynaya hərbi avadanlıq, yardım və təlim dəstəyi üçün 70 milyard avro ayırır və 2027-ci ildə ən azı eyni səviyyədə dəstəyi saxlamaq üçün suveren öhdəliklərini bir daha təsdiqləyirlər.






Bəyanatda Alyansın daha geniş təhlükəsizlik mühitini formalaşdıran strateji rəqabətə, geniş yayılmış qeyri-sabitliyə, hibrid təhdidlərə və təkrarlanan böhranlara cavab verməyə və uyğunlaşmağa davam etdiyi qeyd olunur: "Müttəfiqlər İranın heç vaxt nüvə silahına sahib olmamalı olduğunu təkrarlayır və İranı Hörmüz boğazında naviqasiya azadlığına tam hörmət etməyə çağırır."

**Ərdoğan: Türkiyə hər zaman Alyans daxilində vəzifələrini şərəflə yerinə yetirib**

36-cı NATO Dövlət və Hökumət Başçıları Zirvəsindən sonra mətbuat konfransı keçirən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Avro-Atlantik təhlükəsizliyin sınaqdan keçdiyi bir dövrdə ev sahibliyi etdiyimiz bu tarixi zirvə görüşü ortaq gələcəyimizi formalaşdıracaq şəkildə baş tutdu. Avropalı müttəfiqlərin Alyans daxilində daha çox məsuliyyət daşıyacağı və hərbi imkanlarımızın ədalətli yük bölgüsü yolu ilə gücləndiriləcəyi daha güclü bir NATO üçün Ankarada təməl qoyduq: "Zirvə toplantısında ötən il Haaqada götürülmüş öhdəliklərin yerinə yetirilməsinə diqqət yetirdik. Baş katib cənab Rutte müttəfiqlərin əldə etdiyi irəliləyişi rəqəmlərlə də təqdim etdi. Bu münasibətlə biz həmçinin Alyansa çoxşaxəli və tədricən artan töhfələrimizi konkretləşdirdik. Müttəfiqlər arasında həmrəylik ruhu NATO-nun Ankara Zirvə Toplantısında çox aydın şəkildə özünü göstərdi".

Ərdoğan bildirib ki, Türkiyə hazırda NATO-nun ikinci ən böyük quru ordusuna malikdir. Onilliklərdir ki, NATO-nun cənub-şərq cinahının təhlükəsizliyi əsasən ölkəmizə həvalə edilib." O, Türkiyənin bu etimadı haqlı olaraq yerinə yetirdiyini vurğulayıb. Prezident Ərdoğan bildirib ki, Türkiyə həmişə Alyans daxilində vəzifələrini şərəflə yerinə yetirib: "Biz NATO-nun əməliyyatlarına, missiyalarına və ortaq fondlarına ən çox töhfə verən ölkələrdənik".

Ərdoğan, Alyansın bu yeni dövründə, yenidən kollektiv müdafiəyə yönəlmiş ədalətli yük bölgüsü baxımından daha çox məsuliyyət daşımağa hazır olduqlarını bildirib və Türkiyə Hərbi Hava Qüvvələrinin F-16 təyyarələrinin avqust ayında başlayacaq NATO Hava Polisi missiyasının bir hissəsi olaraq Estoniyada yerləşdiriləcəyini bildirib: "Biz 2028-2029-cu illərdə Alyans Cavab Qüvvələrinə komandanlıq edəcəyik. Türkiyə olaraq, biz qırıcı təyyarələrini, tanklarını, gəmilərini istehsal edən və hava hücumundan müdafiə sistemlərini inkişaf etdirən nadir müttəfiqlərdən biriyik".

**Tramp: Zalda böyük bir birlik ruhu var idi**




ABŞ Prezidenti Donald Tramp 36-cı NATO Dövlət və Hökumət Başçıları Zirvəsindən sonra keçirilən mətbuat konfransında ev sahibi Türkiyəyə və Prezident Ərdoğana istinadən söylədi: "Türkiyədə çox uğurlu bir NATO Zirvəsini başa vurdum. Prezident Ərdoğana, gözəl bir insana, böyük bir liderə, uzun müddətli dosta, çox güclü bir liderə təşəkkür etmək istəyirəm. Onun çox güclü bir şəxsiyyəti var və buna görə də belə uğurlu və yaxşı bir ölkəni idarə edir" deyib. Türkiyənin güclü orduya sahib olduğunu vurğulayan Tramp ABŞ-ın NATO-ya ən böyük töhfə verən ölkə olduğunu vurğulayıb: "Silahlı qüvvələrimizə 1 trilyon dollar sərmayə qoymuşuq və hazırda Konqresdən əlavə 1,5 trilyon dollar tələb edirik". NATO görüşü ilə bağlı isə Tramp bildirib ki, "Zalda böyük bir birlik ruhu var idi. Bütün ölkələri müdafiə öhdəliklərini çox tez bir zamanda artırmağa çağırıram". ABŞ dövlət başçısı tədbiri "çox uğurlu bir zirvə" adlandırıb və Ankarada Ukrayna Prezidenti Volodimir Zelenski və Suriya Prezidenti Əhməd əl-Şaara da daxil olmaqla bir çox liderlə görüşmək fürsəti qazandığını önə çəkib.

**Rutte: növbəti beş ildə pilotsuz sistemlərə 40 milyard dollar, yanacaq təchizatı üçün 27 milyard avro yatırılacaq**

NATO-nun Baş katibi Mark Rutte isə keçirilən mətbuat konfransında Ankara Zirvəsini çox uğurlu bir görüş adlandırıb. "Bu zirvə görüşünün mesajı sadədir: NATO nəticə verir", - deyə vurğulayan Rutte ötən il Haaqada keçirilən Zirvə Görüşündə müttəfiqlərin Alyansı gücləndirmək üçün tarixi qərarlar verdiyini xatırladaraq "Ankarada bu öhdəliklər artıq tətbiq olunur" deyib.




O, müdafiə investisiyalarının artmağa davam etdiyini, yeni hərbi imkanların inkişaf etdirildiyini və müdafiə sənayesində istehsalın artdığını bildirib. Rutte Avropa və Kanadadakı müttəfiqlərin ümumi təhlükəsizlik üçün daha böyük məsuliyyət daşıdıqlarını da əlavə edib. O, müttəfiqlərin 2035-ci ilə qədər ümumi daxili məhsullarının (ÜDM) 5 faizini müdafiəyə ayırmaq məqsədinə doğru əhəmiyyətli irəliləyiş əldə etdiklərini və təhlükəsizliyi gücləndirən əsas müdafiə xərclərinin və investisiyaların artmağa davam etdiyini bildirib. Baş katib bunun sadəcə daha çox xərcləmək demək olmadığını, əksinə silahlı qüvvələri getdikcə daha təhlükəli bir dünyada ehtiyac duyduqları imkanlarla təchiz etmək demək olduğunu vurğulayıb. Rutte, istehsalın sürətləndirilməsinin, müdafiə sənayesindəki maneələrin aradan qaldırılmasının, dayanıqlığın artırılmasının və innovasiyaya investisiya qoyuluşunun prioritetlər arasında olduğunu söyləyib və NATO Zirvəsi Müdafiə Sənayesi Forumunda cəmi bir gündə 50 milyard dollardan çox yeni satınalma müqavilələrinin imzalandığını qeyd edib.

O, həmçinin müttəfiqlərin növbəti beş il ərzində pilotsuz sistemlərə 40 milyard dollar, NATO-nun yanacaq təchizatı zəncirini gücləndirmək üçün infrastruktur investisiyalarına isə 27 milyard avro yatırılacaq "NATO Dron Kənarları" təşəbbüsünü başlatdıqlarını bildirib.

Rutte həmçinin süni intellekt və qarşılıqlı fəaliyyət göstərən transatlantik döyüş bulud infrastrukturu kimi texnoloji sahələrdə yeni addımların atıldığını deyib. O, Ukraynaya dəstəyin davam edəcəyini vurğulayaraq, müttəfiqlərin bu il və gələn il Ukraynaya ən azı 70 milyard avro dəyərində hərbi texnika, yardım və təlim dəstəyi verməyə öhdəlik götürdüklərini bildirib. Vurğulayıb ki, bu, 1 milyard insanın təhlükəsizliyini təmin etməyə və uyğunlaşmağa davam edən NATO 3.0-ın mahiyyətidir. Rutte əlavə edib ki, növbəti NATO Zirvəsi Albaniyada keçiriləcək. Bu qərarın Haaqa Zirvəsində verildiyini deyən Rutte dəqiq tarixin hələ müəyyən edilmədiyini bildirib.

***P.İSMAYILOV***

---

# NATO-nun Kosmosda "yeni gözü" - Türkiyənin İMECE Komandası...

Türkiyənin ev sahibliyi etdiyi NATO-nun Ankara Zirvə Toplantısında kosmosla bağlı layihələr də müzakirə edilib və TÜBİTAK UZAY-ın İMECE peykləri və ASELSAN-ın LEO peyk şəbəkəsinin təşkilatın texnologiya arxitekturasında rol oynayacağı qərara alınıb.

"Kosmosda Hibrid Alyans Laylı Əməliyyatlar" (HALO) olaraq elan edilən layihə, müttəfiq milli hərbi peykləri ortaq bir meqa-peyk arxitekturasında bir araya gətirməyi hədəfləyir. Bu yeni modelin tək bir ölkənin peyk donanmasının xərc, vaxt və əhatə dairəsi baxımından məhdudiyyətlərini aradan qaldıracağı, xüsusən də yüksək sürətli rabitə, kəşfiyyat toplama və raket izləmə sahələrində əhəmiyyətli üstünlüklər təmin edəcəyi gözlənilir. Beləliklə, NATO yüksək sürətli rabitə, kəşfiyyat toplama və raket izləmə sahələrində daha güclü və əhatəli bir qabiliyyətə nail olmağı hədəfləyir.




Türkiyənin bu layihəyə birbaşa töhfəsi İMECE peykindən yeni peyklərə mühəndislik təcrübəsinin ötürülməsi olacaq. İMECE Yer müşahidə peykinə əsaslanaraq Türkiyə iki yeni yüksək qətnaməli peyk hazırlayacaq. Bu peyklər Ankarada TÜBİTAK UZAY tərəfindən istehsal olunacaq və müqavilənin dəyəri 300 milyon dolları keçəcək. Komanda Peyk İnkişaf Layihəsi çərçivəsində məqsəd, İMECE-2 və İMECE-3-ün mövcud İMECE ilə birlikdə fəaliyyət göstərməsi, daha geniş ərazilərin daha qısa müddətdə görüntülənməsinə imkan verməsi və eyni bölgəyə yenidən baş çəkmək üçün tələb olunan vaxtı azaltmasıdır. Bu imkan böhran zonalarında, sərhəd xətlərində, dəniz ərazilərində, hərbi hərəkətlərdə, fəlakət və fövqəladə hallarda daha sürətli məlumat istehsalı demək olacaq.

Türkiyənin metraj qətnaməsinə malik ilk yerli istehsal müşahidə peyki olan İMECE Hərbi Hava Qüvvələri Komandanlığının inventarına "GÖKTÜRK-2B" adı altında əlavə edilib. Yeni layihələrlə İMECE-dən qaynaqlanan yerli peyk toplanması NATO-nun ortaq təhlükəsizlik arxitekturası daxilində daha görünən bir qabiliyyətə çevriləcək.

Bundan əlavə, Türkiyənin ASELSAN ilə aşağı orbitli peyklərin və hərbi rabitə sistemlərinin, eləcə də Polad Günbəz Milli İnteqrasiya olunmuş Hava Müdafiə Arxitekturası çərçivəsində erkən xəbərdarlıq radar sistemlərinin inkişafı üçün 350 milyon dollardan çox müqavilə imzalaması gözlənilir. Bu sistemlərin Türkiyənin döyüş meydanında əlaqəni qorumaq qabiliyyətini, aşkarlama və erkən xəbərdarlıq imkanlarını artıracağı gözlənilir.

# Suriya siyahıdan çıxarılır




ABŞ Prezidenti Donald Tramp 1979-cu ildən "terrorizmi dəstəkləyən dövlətlər" siyahısından Suriyanı çıxaracağını açıqlayıb. Ankarada Suriya Prezidenti Əhməd əl-Şaara ilə ikitərəfli görüşündən əvvəl mətbuata açıqlamalar verən Tramp bildirib ki, "Düşünürəm ki, bunu edəcəyəm. Niyə etməməliydim? Əl-Şaara çox yaxşı iş gördü. Bəlkə də bu məsələni qaldıra bilərdi. Bu, yaxşı sualdır. Kiminsə bununla bağlı problemi varmı? Düşünürəm ki, biz bunu etməliyik. Bəli, mən Suriyanı siyahıdan çıxaracağam" dedi.

Suriya prezidenti sanksiyaları ləğv etdiklərinə görə Türkiyəyə və Körfəz ölkələrinə təşəkkür edib. Suriyadan Livan və Hizbullah məsələsində kömək istəyib-istəmədiyi ilə bağlı suala Tramp belə cavab verib: "Onlar kömək edə bilərlər. Görəcəyik. Bu məsələdə böyük irəliləyiş əldə edirik".

# Müharibə yenidən başlayır?

## ABŞ və İrandan qarşılıqlı ittihamlar

İyulun 7-də Hörmüz boğazında üç ticarət gəmisinin hücuma məruz qalmasından sonra ABŞ-la İran arasında qarşılıqlı hücumlar yenidən başlayıb. Həmin gün Amerika hərbi qüvvələri İrandakı müəyyən obyektlərə, İran isə ABŞ-ın regiondakı hərbi bazalarına hücum edib. Növbəti gün ərzində də qarşılıqlı hücumlar davam edib. Tərəflər bir-birini razılaşmaları pozmaqda ittiham edir.

### "Hörmüz boğazı ABŞ-ın deyil, İranın şərtləri əsasında açılacaq"



ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) yaydığı məlumatda deyilir ki, ABŞ ordusu İrana qarşı yeni zərbələr endirib və 90 hədəfə hücum edib: "Məqsəd Hörmüz boğazında İranın ticarət gəmilərinə və günahsız mülki dənizçilərə hücum etmək qabiliyyətini daha da zəifləmkdir. ABŞ qüvvələri İranın təxminən 90 hərbi hədəfinə zərbə endirib". Komandanlıq hücuma məruz qalan hədəflər arasında hava hücumundan müdafiə sistemlərini, sahil müşahidə sistemlərini, raket və dron saxlama yerlərini və hərbi logistika infrastruktur obyektlərini göstərib.

ABŞ-ın yeni hücumlarından sonra İran Parlamentinin sədri Məhəmməd Baqer Qalibaf Hörmüz boğazının Vaşinqtonun təhdidləri səbəbindən deyil, yalnız Tehranın şərtləri yerinə yetirildikdən sonra açılacağını bildirib. O, ABŞ-ın hədə-qorxularının və pozulmuş vədlərinin artıq nəticəsiz qalmadığını vurğulayıb.

İran Səhiyyə Nazirliyi isə bildirib ki, ABŞ-ın son iki gündə İranın beş əyalətinə endirdiyi zərbələr nəticəsində 14 nəfər ölüb, 78 yaralı var. Nazirliyin İctimaiyyətlə Əlaqələr və İnformasiya Mərkəzinin rəhbəri Hüseyn Kirmanpur "X" sosial media şəbəkəsində yazıb: "ABŞ son iki gündə İranın beş əyalətini hədəfə alıb. Zərbələr indiyə qədər 14 ölüm və 78 yaralanma ilə nəticələnib". Nazirliyin məlumatına görə, yaralılardan 47-si xəstəxanadadır, qalanları isə tibbi yardım aldıqdan sonra evə buraxılıb.

İranın dövlət xəbər agentliyi IRNA-nın Xuzistan əyalətinin təhlükəsizlik məsələləri üzrə qubernator müavini Vəliullah Hayatiyə istinadla verdiyi məlumata görə, qurbanlardan üçü cənub-qərbdəki Əhvaz şəhəri yaxınlığında həlak olub.

"Təsnim" xəbər agentliyinin məlumatına görə, İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH) isə Salman limanı, ABŞ Hərbi Dəniz Qüvvələrinin Bəhreyndəki Beşinci donanmasının qərargahı və Küveytdəki Əli Əl-Salem hava bazası da daxil olmaqla ABŞ-ın 85 hərbi obyektini hədəf alan raket və dron əməliyyatı keçirib.

### ABŞ hərbi bazaları İsrailə köçürüləcək?

İranın Körfəz ölkələrinə hücumları fonunda ABŞ-ın hərbi bazalarının İsrail ərazisinə köçürülməsi də gündəmə gəlib. Bu barədə rəsmi mənbələrə istinadla məlumat yayan İsrailin "Hayom" nəşrinin bildirdiyinə görə, Yaxın Şərqdəki Amerika bazalarının İsrailin cənubundakı Nəcəf səhrasına köçürülməsi ehtimalı hökumətin iclasında müzakirə edilib. Rəsmilər ABŞ bazalarının İsrailə köçürülməsi ehtimalını müsbət qiymətləndirirlər və bu məsələ artıq yüksəkvəzifəli Amerika nümayəndələri ilə müzakirə olunub. Lakin hələ yekun qərar verilməyib və tərəflər arasında müzakirələr davam edir.

ABŞ-ın Küveyt, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı və Qətərdə bazaları var və bunların hamısı İranın raket hədəfi mənzilində yerləşir. Məlumata görə, İsrail Amerika üçün bir neçə açıq üstünlük - Yaxın Şərqdəki əsas əməliyyat sahələrinə coğrafi yaxınlıq, sıx təhlükəsizlik və kəşfiyyat əməkdaşlığı, inkişaf etmiş texnoloji infrastruktur, Amerikapərəst əhali və hava hücumundan müdafiə sistemi təklif edir. Bu potensial üstünlüklərə əlavə olaraq, İsraildə daimi və geniş Amerika bazasının olması, xüsusən də ABŞ ilə birbaşa qarşıdurma halında, ölkəni İran və bölgədəki digər aktyorlar üçün daha da əhəmiyyətli bir hədəfə çevirə bilər.

Müzakirələr zamanı ortaya çıxa biləcək digər məsələ belə bir addımın İsrailin hərəkət azadlığına nə dərəcədə təsir göstərə biləcəyidir. Bununla belə, Amerika qüvvələrinin və infrastrukturunun İsrail torpağında yerləşdirilməsi Vaşinqtonun İsrailə qarşı təhlükəsizlik öhdəliyini gücləndirə bilər.

ABŞ Prezidenti Donald Tramp isə hərbi toqquşmalar fonunda İranın razılığa gəlmək istədiyini deyib: "İrandan bir az əvvəl zəng etdilər. Onlar razılığa gəlməyi çox istəyirlər, sadəcə razılaşmaya layiq olub-olmadıqlarını bilmirəm. Razılaşmaya əməl edəcəklərini bilmirəm. Problem də budur. Biz onlara çox sərt zərbələr endirdik və deyirəm ki, biz onlara 20:1 hesabı ilə zərbə endirdik. Hər dəfə onlar bizə zərbə endirəndə eyni hesab ilə zərbə endirəcəyik".

### Neft və qazın qiyməti yenidən bahalaşır

Körfəzdə hərbi əməliyyatların yenidən başlaması dünya bazarında xam neft və təbii qazın qiymətlərinin növbəti dəfə yüksəlməsinə səbəb olub. ABŞ-ın Kolumbiya Universitetinin nəzdində fəaliyyət göstərən enerji siyasətinin araşdırma mərkəzinin hesabatında bildirilir ki, Avropa ölkələrindəki qaz anbarları hələ də dolu deyil. Yayın həddən artıq isti keçməsi elektrik enerjisinə tələbatı artırıb. Bu səbəbdən də elektrik enerjisi istehsalı üçün istifadə olunan qazın həcmi artıb ki, bu da qiymətlərin aşağı düşməsinə imkan vermir. Digər tərəfdən Hörmüz boğazından keçid açılsa da Qətər əvvəlki kimi sutkada 3 deyil, cəmi 1 tanker mayeləşdirilmiş təbii qaz (LNG) ixrac edə bilir. Müharibə zamanı Qətərin LNG istehsal edən qaz infrastrukturuna ciddi ziyan dəyib. Hazırda bərpa işləri davam edir ki, bu da anbarların doldurulmasını ləngidir.

Mərkəzin təhlilinə görə, bu gün Fransa qaz anbarlarını 50, Almaniya 42,3, Niderland 26,7, Belçika isə 23,7 faizini doldura bilib. Əgər oktyabr ayına kimi anbarlar doldurulmasa qarşıdakı qış mövsümündə böhran yaşanacaq ki, bu da qiymətlərin artması ilə müşahidə oluna bilər. İyulun 8-də İran ilə ABŞ arasında hərbi əməliyyatların yenidən başlaması vəziyyəti daha da gərginləşdirdi. Belə ki, Hörmüz boğazından gəmilərin keçidi yenidən bağlanıb ki, bu da bazarın tədarükündə problem yaradıb. Bu vəziyyət qiymət artımını qaçılmaz edir.

Qətərin Baş naziri Muhəmməd bin Əbdülrrəhman Əl Tani "Financial Times" müsahibəsində bildirib ki, Qətər 3 həftə ərzində infrastrukturu bərpa edərək LNG istehsalını artıra bilər. Lakin Körfəzdəki gərgin vəziyyət tədarükü çətinləşdirir. Onun fikrincə, əsas problem Körfəzdəki sabitliyin pozulmasıdır.

### Pakistan və Çin tərəfləri dialoqa çağırıb



Tərəflər arasında vasitəçilik edən Pakistan isə ABŞ və İranı dialoqa çağırıb. Xarici İşlər Nazirliyi bəyan edib ki, Yaxın Şərqdə sülhə nail olmaq üçün diplomatiyadan başqa alternativ yoxdur. Rəsmi İslamabad bölgədəki hadisələrlə bağlı dərin narahatlığını ifadə edib və hərbi əməliyyatların yenidən başlamasının heç bir tərəfin maraqlarına uyğun olmadığını bildirib. Nazirliyin yaydığı bəyanatda deyilir: "Pakistan bütün tərəfləri təmkinli olmağa, bölgədə sülh və sabitliyi daha da sarsıda biləcək hər hansı bir hərəkətdən çəkinməyə çağırır". İslamabad Vaşinqton və Tehranı anlaşma memorandumunun şərtlərinə bərabər şəkildə riayət etməyə səsləyib.

Çin Xalq Respublikası da iyulun 7-də hərbi güc tətbiqinin "danışıqların ruhuna uyğun olmadığını" bildirib və hər iki tərəfin cavab hava hücumları fonunda ABŞ və İranı dialoqa çağırıb. Çin Xarici İşlər Nazirliyinin sözçüsü Mao Nin Pekində jurnalistlərə deyib: "Müharibəni yenidən alovlandırmaq heç kimin maraqlarına xidmət etmir". Çin rəsmisinin bu açıqlaması ABŞ ordusunun İranın Hörmüz boğazından keçən ticarət gəmilərinə hücumlarına cavab olaraq 80-dən çox hədəfə zərbə endirməsi fonunda verilib.

Bu hücumları şərh edən Mao Nin deyib: "Hərbi tədbirlər danışıqların ruhuna uyğun deyil". O, İran və ABŞ prezidentləri tərəfindən ötən ay imzalanan və müharibəyə birdəfəlik son qoymaq üçün iki tərəfin 60 günlük danışıqlar müddətini müəyyən edən müqaviləyə istinad edərək əlavə edib: "Biz iki tərəfi mübahisəni danışıqlar yolu ilə həll etməyə, İslamabad Anlaşma Memorandumu üzrə prosesi davam etdirməyə və güc tətbiqindən çəkinməyə çağırırıq".

**N.BAYRAMLI**



## ABŞ vitse-prezidenti: Hörmüz boğazından keçidləri bağladığına görə İrana daha sərt zərbələr endiriləcək

ABŞ-ın vitse-prezidenti C.D Vens, İranın Hörmüz boğazından keçən ticarət gəmilərinə atəş açacağı təqdirdə ABŞ-ın "daha sərt" cavab verəcəyini bildirib. Xarici media yazır ki, Vens, Viskonsin ştatının Miluoki şəhərində çıxışı zamanı ABŞ ilə İran arasında yenidən gərginliyə səbəb olan hadisələri şərh edib. İranı Hörmüz boğazından keçən gəmilərə hücum etməmək barədə xəbərdar edən Vens deyib: "Əldə etdiyimiz əsas razılaşma bu idi: gəmilərə atəş açmağı dayandırsanız, blokadanı qaldıracağıq, amma gəmilərə atəş açsanız, cavab verəcəyik və bu cavab indiyə qədər olduğundan daha sərt olacaq".

Vitse-prezident İranın nüvə proqramlarının və ənənəvi hərbi qüvvələrinin məhv edildiyini bir daha təkrarlayıb: "İran sistemində ABŞ ilə münasibətlərimizi dəyişdirmək və yeni bir fəsil başlamaq istəyirik deyən insanlar var idi. Prezident Donald Tramp isə bunun qarşılığında bildirmişdi ki, oturub danışıqlar aparaq və sistemdəki ağıllı insanların nəzarəti ələ keçirə biləcəyini görək. Əldə etdiyimiz əsas razılaşma bu idi".

Vens İranın Hörmüz boğazındakı gəmilərə atəş açmağa başladığını bildirib: "Onlar təxminən bir həftə özlərini yaxşı apardılar, amma sonra yenidən atəş açmağa başladılar. Beləliklə, razılaşma çox sadədir; əgər gəmilərə atəş açsalar, biz onları məhv edəcəyik, bu qədər sadədir və razılaşmanın necə işləməsinin əsas məntiqi budur".

President Trampın "Dünya enerji daşınmalarının böyük bir hissəsinin keçdiyi həyati əhəmiyyətli arteriya, keçid açıq qalmalıdır və iranlılar bunu bilməlidirlər" sözlərini xatırladan Vens qeyd edib ki, əks halda ABŞ bunu cavabsız qoymayacaq.

Xatırladaq ki, iyulun 7-də Qətər və Səudiyyə Ərəbistanına məxsus tankerlər də daxil olmaqla ən azı 3 kommersiya gəmisinin Hörmüz boğazında naməlum mənbədən mərmilər və pilotsuz uçuş aparatları (PUA) tərəfindən vurulduğu bildirilib. ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) bu hücumlara cavab olaraq İrandakı 80-dən çox hədəfə, o cümlədən radar sistemlərinə, raket batareyalarına və İnqilab Keşikçilərinə məxsus 60-dan çox kiçik qayığa hava hücumu həyata keçirdiyini açıqlayıb.

## Almaniya ABŞ-dan "Tomahawk" raketləri alır




Almaniya ilə ABŞ arasında "Tomahawk" qanadlı raketlərinin alınmasına dair razılıq əldə olunub. Bu barədə Almaniya Kansleri Fridrix Merts Bundestaqdakı çıxışında məlumat verib.

Kansler Ankarada keçirilən NATO sammiti çərçivəsində "Tomahawk" raketlərinin alınaraq Almaniyada yerləşdirilməsi barədə ABŞ hökuməti ilə razılığın əldə olunduğunu bildirib.

"Bununla da ölkəmizin müdafiə qabiliyyətində mövcud olan mühüm strateji boşluğu aradan qaldırırıq. Eyni zamanda, Avropanın müdafiə potensialının gücləndirilməsi məqsədilə analoji yerli raket sistemlərinin hazırlanması və onların Avropa ərazisində yerləşdirilməsi istiqamətində də işləri davam etdirəcəyik", - deyə Fridrix Mert qeyd edib.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Spark Press" MMC - 0503548555
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Dünyanı ayaqda saxlayan dəyər!



## Hüququn qorunduğu cəmiyyətlər daha güclü olur...

İnsan cəmiyyətinin minilliklər boyu keçdiyi inkişaf yolu bir həqiqəti dəyişməz olaraq təsdiqləyib: Dövlətlərin qüdrəti nə qədər böyük, iqtisadiyyatı nə qədər güclü olsa belə, bütün bunların uzunömürlü və davamlı olması yalnız hüququn aliliyinin təmin edildiyi zaman mümkündür. Çünki hüquq sadəcə maddələrdən ibarət qanunlar toplusu deyil, insanların təhlükəsiz yaşamaq, sərbəst düşünmək və gələcəyinə inamla baxmağın təmin edən ən mühüm ictimai dayaqlardan biridir.

Bu gün bütün dünyada Dünya Hüquq Günü kimi qeyd olunur. 10 iyul tarixinə qədər "Hüquq yolu ilə dünya sülhü" adlı 2 beynəlxalq konfrans keçirilsə də, 1967-ci ildə Cenevrədə keçirilən 3-cü konfransdan başlayaraq, hər il 10 İyul Dünya Hüquq Gününün qeyd edilməsi qərara alınır.

Demokratik cəmiyyətdə insana qayğı yüksək və ali məqsəd sayılır. Bu baxımdan da müvafiq olaraq insan hüquqları və azadlıqlarının konstitusiyada və qanunlarda təsbit və təsdiq edilməsi dövlət idarəçiliyinin əsas məqsədi kimi çıxış edir.

Müasir dünyada inkişaf etmiş demokratik dövlətlər öz ölkəsində insan hüquqlarının təmin edilməsi ilə yanaşı, başqa ölkələrdə də onların qorunmasına, demokratik cəmiyyət quruculuğuna yardım etməyə çalışırlar. Hələ 1941-ci ilin yanvar ayında ABŞ prezidenti Franklin Ruzvelt özünün Konqresə göndərdiyi müraciətində Amerika milləti qarşısında duran yeni məqsədin bütün dünyada insan hüquqlarının pozulması hallarına qarşı mübarizə aparmaqdan ibarət olduğunu bəyan etmişdi. O, "Dörd aylıq azadlıq" əsərində göstərirdi ki, "... sağlam və güclü demokratiyanın təməlində müəmmalı bir şey yoxdur.

**Bərabərlik hüququnun əhəmiyyəti**

Bərabərlik hüququ hər bir cəmiyyətin inkişafı və rifahı üçün mühüm əhəmiyyət daşıyır. Hüquqi bərabərlik olmadığı halda, ayrı-seçkilik, sosial narazılıq və ədalətsizlik yaranır. Tarixi təcrübə göstərir ki, hüquqi və sosial bərabərlik təmin edildikdə, cəmiyyətlər daha sabit və ədalətli olur.

Bu hüququn qorunması üçün yalnız qanunların mövcud olması kifayət etmir. Hər bir vətəndaş bərabərlik mədəniyyətini formalaşdırmalı, həm öz hüquqlarını, həm də başqalarının hüquqlarını müdafiə etməyə töhfə verməlidir. Cəmiyyətin bütün üzvü bərabərlik hüququndan istifadə edərək daha ədalətli və bərabər bir dünya qurmağa çalışmalıdır.

Bərabərlik hüququ təkcə hüquqi norma deyil, həm də insan ləyaqətinin və ədalətin qorunmasının əsas vasitəsidir. Bu prinsipi qorumaq və inkişaf etdirmək hər kəsin ümumi vəzifəsidir. Bu gün dünyada mövcud olan dövlətlərin hər birinin, ayrıca olaraq daxili hüququ mövcuddur. Ona görə də milli hüquqa dövlətdaxili hüquq da deyilir.

**Azərbaycanın hüquq sistemi**

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra dünya birliyinin tamhüquqlu üzvü kimi ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul etməklə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçib. Azərbaycanın müasir inkişaf dövründə hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilib.

Azərbaycanda insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində atılan addımları görmək üçün ilk növbədə Konstitusiyaya nəzər salmaq lazımdır. Konstitusiyamızın təqribən 3/4-ü vətəndaşlarımızın hüquq və azadlıqlarının müdafiəsinə yönəlib və bu sahədə olan münasibətləri özündə ehtiva edir. Bu baxımdan insanların hüquqi-siyasi və mədəni səviyyəsinin yüksəldilməsi üçün də dövlət lazımi tədbirlər həyata keçirir.

Ümumiyyətlə müasir dövrdə ictimai həyatın demokratikləşdirilməsi, vətəndaş cəmiyyətinin və bütövlükdə cəmiyyətin harmonik, sabit inkişafının təmin edilməsi hüquqi dövlət quruculuğunun əsas istiqamətləri sayılır. Bu gün Azərbaycanda baş verən tərəqqi proseslərinin, novatorluğun, islahatların lokomotivi qismində çıxış edən hüquqi dövlət anlayışı bütövlükdə sabit inkişafın əsas təməl prinsipidir. Yerləşdiyi Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilən Azərbaycanda hüquqi dövlət quruculuğu prosesinin uğurları saysızdır. Azərbaycan Respublikası müstəqillik qazandığı dövrdən indiyə kimi insan hüquq və azadlıqlarının təmin olunması, vətəndaş cəmiyyətinin formalaşdırılması və daha da təkmilləşdirilməsi istiqamətində çox böyük addımlar atıb. Nəticə etibarı ilə, ölkəmizdə davamlı hal almış bu proseslər demokratikləşmə prosesinin də operativ və effektiv səciyyə almasını şərtləndirib. Odur ki, bütün bunların fonunda Azərbaycan demokratik inkişaf yolunda qətiyyətlə irəliləyir.

*Yeganə BAYRAMOVA*

# Sağlamlığa aparan addımlar...

## Yayda gəzinti üçün ən ideal məkan və vaxt hansıdır ?

Yayın isti günləri bir çox insan üçün istirahət mövsümü hesab olunsa da, həkimlərin fikrincə, bu fəsildə fiziki aktivliyin düzgün təşkili orqanizmin sağlamlığının qorunması baxımından xüsusi əhəmiyyət daşıyır. Havanın temperaturunun normadan artıq yüksəldiyi saatlarda edilən gəzinti ürək-damar sisteminə əlavə yük yarada, günvurma, susuzlaşma və arterial təzyiq dəyişiklikləri ilə nəticələnə bilər. Buna görə də sağlam həyat tərzini seçən insanların ilk növbədə günün hansı saatlarında və harada hərəkət etməli olduqlarını bilmələri vacibdir.



Mütəxəssislər yay aylarında gəzinti və yüngül idman üçün ən əlverişli vaxtın səhər saat 06:00-dan 09:00-dək, eləcə də günəş şüalarının təsirinin zəiflədiyi axşam 18:30-dan 21:00-dək olan müddət olduğunu bildirirlər. Çünki həmin saatlarda havanın temperaturu nisbətən aşağı olur, ultrabənövşəyi şüaların təsiri azalır, nəfəs alma prosesi rahatlaşır və orqanizm fiziki yükə daha təhlükəsiz şəkildə uyğunlaşa bilir. Saat 11:00-dan 17:00-dək açıq havada intensiv idmanla məşğul olmaq xüsusilə yaşlı insanlar, uşaqlar, ürək və təzyiq xəstəlikləri olan şəxslər üçün ciddi sağlamlıq riski yarada bilər.

**Yayda gəzinti üçün ən ideal məkanlardan biri...**

Mövzu barədə "Yeni Azərbaycan"a danışan həkim-terapevt Şahvələd Məmmədov bildirib ki, yay mövsümündə gəzinti üçün ən ideal məkanlardan biri dəniz sahilləri hesab olunur. Onun sözlərinə görə, dənizdəki havada olan duz və mineral hissəciklər tənəffüs yollarının təmizlənməsinə kömək edir, oksigenlə zəngin mühit ağciyərlərin fəaliyyətini yaxşılaşdırır, dəniz dalğalarının yaratdığı təbii səs isə sinir sistemini sakitləşdirərək stress hormonlarının azalmasına, yuxunun keyfiyyətinin yüksəlməsinə və ümumi psixoloji rahatlığın təmin olunmasına müsbət təsir göstərir: "Ona görə də səhərin ilk saatlarında və ya gün batımına yaxın dəniz kənarında edilən gəzintilər həm fiziki, həm də emosional sağlamlıq üçün əsl təbii terapiya hesab edilir.

Şəhər parkları da yay aylarında sağlam həyat tərzinin ayrılmaz hissəsinə çevrilir. Yaşıllıqla əhatə olunmuş ərazilərdə havanın temperaturu asfalt örtüklü küçələrlə müqayisədə daha aşağı olur, ağacların ifraz etdiyi oksigen və fitonsidlər nəfəs yollarını rahatlaşdırır, insanların təbiətlə təması isə beyin fəaliyyətini aktivləşdirərək diqqəti artırır, yorğunluğu azaldır və gündəlik həyatın yaratdığı gərginliyin aradan qalxmasına kömək edir. Bu baxımdan hər gün cəmi 30-60 dəqiqə parkda gəzinti etmək belə sağlamlıq üçün ciddi fayda verir".

**Müntəzəm yürüyüşün xeyirləri...**

Həkimin sözlərinə görə, insan orqanizmi hərəkət üçün yaradılıb və yay fəslində düzgün təşkil olunmuş gəzinti ən təhlükəsiz fiziki aktivlik növlərindən biri hesab olunur: "Müntəzəm yürüyüş ürək əzələsini gücləndirir, qan dövranını yaxşılaşdırır, maddələr mübadiləsini sürətləndirir, artıq çəkinin azalmasına kömək edir. Eyni zamanda qanda şəkərin və xolesterinin tənzimlənməsinə müsbət təsir göstərir, immun sistemini möhkəmləndirir və beynin oksigenlə təminatını artıraraq yaddaşın, diqqətin və zehni fəaliyyətin daha səmərəli işləməsinə şərait yaradır. Lakin sağlamlıq yalnız hərəkət etməkdən ibarət deyil, həm də bunu düzgün qaydalar çərçivəsində həyata keçirməkdir. Ona görə də yay aylarında açıq havaya çıxarkən yüngül və açıq rəngli geyim seçmək, başı günəşdən qoruyan papaqdan istifadə etmək, gəzintidən əvvəl və sonra kifayət qədər su qəbul etmək, günəşdən qoruyucu vasitələrdən yararlanmaq, ağır fiziki yüklənmədən çəkinmək və orqanizmin verdiyi hər bir siqnalı diqqətlə izləmək vacibdir. Başgicəllənmə, ürəkbulanma, həddindən artıq halsızlıq və ya nəfəs darlığı hiss edildikdə fiziki aktivlik dərhal dayandırılmalı və kölgəlik əraziyə keçilməlidir".

*Yeganə BAYRAMOVA*

*İdman*

## "Qalatasaray" Con Duranı transfer edir



Türkiyənin "Qalatasaray" klubu Səudiyyə Ərəbistanının "Əl-Nəsr" komandasında çıxış edən hücumçu Con Duranı heyətinə qatır. AZƏRTAC xarici mətbuata istinadən xəbər verir ki, tərəflər 22 yaşlı kolumbiyalı futbolçunun birillik icarəsi ilə bağlı razılıq əldə ediblər. Razılaşmaya əsasən, "cim-bom" Duranın illik maaşının 4 milyon avroluq hissəsini ödəyəcək, qalan məbləğ isə "Əl-Nəsr" tərəfindən qarşılanacaq.

Bildirilib ki, futbolçu yaxın günlərdə transferi rəsmiləşdirmək üçün İstanbula yollanacaq. Qeyd edək ki, Con Duran 2025/2026-cı illər mövsümünün birinci yarısını "Fənərbağçə"da, ikinci hissəsini isə icarə əsasında Rusiyanın "Zenit" klubunda keçirib.

## 12 avarçəkənimiz Gürcüstana gedir

Azərbaycan avarçəkənləri Gürcüstanın Poti şəhərində təşkil olunacaq beynəlxalq reqatada iştirak edəcəklər. Azərbaycan Su İdman Növləri Federasiyasından AZƏRTAC-a bildirilib ki, iyulun 10-dan 12-dək keçiriləcək yarışda ölkəmiz 12 idmançı ilə təmsil olunacaq. Akademik avarçəkmə növündə İsmayıl Şirinov, Sabit Abdullayev, Məhəmməd Həsənov və İsabala Dadaşzadə qüvvələrini sınayacaqlar. Kanoe yarışlarında Fəxri Sadıqlı, Vaqif Mustafazadə və Rüstəm Əsgərov medal uğrunda mübarizə aparacaqlar.




Kayak üzrə isə İvan Vorobjanski, Qiyas Əhmədov, Tengiz Qaqnidze, Elmir Tərverdiyev və Mustafa Vəlizadə bacarıqlarını göstərəcəklər. Yığmaya məşqçilər Tofiq Bayramov və Fərid Saadov rəhbərlik edəcəklər.

## "Mançester Yunayted" yeni stadionunun layihəsini təqdim edib

İngiltərənin "Mançester Yunayted" klubu yeni stadionun layihəsini ictimaiyyətə təqdim edib. AZƏRTAC xəbər verir ki, 100 min tamaşaçı tutumuna malik olacaq arena hazırkı "Old Trafford" stadionundan təxminən 350 metr şimal-qərbdə inşa ediləcək. Layihəyə əsasən, stadionun ətrafında idman və əyləncə zonası yaradılacaq. Bu layihənin həyata keçirilməsi nəticəsində təxminən 48 min yeni iş yerinin açılması nəzərdə tutulur.

Qeyd edək ki, "Mançester Yunayted" iyun ayında tikinti üçün 25 akr torpaq sahəsi alıb. Yeni stadionun inşasının 4-5 il davam edəcəyi və layihənin təxminən 2 milyard funt sterlinqə başa gələcəyi gözlənilir.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4409
Sifariş: 875
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova